RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 69 (10089) 23 aprel 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Strateji tərəfdaş və dost



## Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs Azərbaycana rəsmi səfər edib

Aprelin 22-də Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə təkbətək və geniş tərkibdə görüşü keçirilib.

Sonra Prezident İlham Əliyevin və Prezident Edqars Rinkeviçsin iştirakı ilə Azərbaycanla Latviya arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi olub.

Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyevin adından Prezident Edqars Rinkeviçsin şərəfinə rəsmi lanç verilib.

Prezidentlərin iştirakı ilə Azərbaycan-Latviya biznes-forumu keçirilib.

Həmin gün Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisdə olub.

Daha sonra Prezident Edqars Rinkeviçs Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Latviya Prezidenti Edqars Rinkeviçs Şəhidlər xiyabanını ziyarət edib və "Bakı Ağ Şəhər"də olub.

2-5

## Prezident İlham Əliyev Latviya Prezidentinin ölkəmizə səfəri ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Latviya Prezidenti Edqars Rinkeviçsin ölkəmizə səfəri ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Cənab Prezident, Azərbaycana xoş gəlmisiniz. Doqquz il əvvəl imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə Azərbaycan-Latviya münasibətlərini yüksək səviyyəyə qaldırdı. Əminəm ki, Prezident kimi ölkəmizə ilk rəsmi səfəriniz dostluq əlaqələrimizi daha da möhkəmləndirəcək və qarşılıqlı faydalı əməkdaşlıq üçün yeni imkanlar açacaq".

## Bakı-Brüssel xəttində yeni dönəmin anonsu verildi

Azərbaycan və Avropa İttifaqı arasındakı əlaqələr 1996-cı ildə imzalanmış və 1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə tənzimlənir. Odur ki, otuz il əvvəl imzalanmış bu sənəd müasir geosiyasi reallıqları, iqtisadi miqyası və enerji əlaqələrini tam əks etdirmir. Yeni saziş bu boşluğu dolduracaq. Kallasın ali nümayəndə qismində bu mövzunu gündəmə gətirməsi Brüsselin Bakı ilə münasibətləri praqmatik və institusional səviyyəyə qaldırmaq istəyini büruzə verir.

Danışıqların bərpası o deməkdir ki, Aİ Azərbaycanla bərabərhüquqlu və strateji müttəfiqlik statusunu hüquqi sənədlə möhkəmləndirmək istəyir. Düzdür, tərəflər arasında bəzi siyasi fikir ayrılıqları var. Lakin Azərbaycan hər zaman öz maraqlarını qoruyur. Ələlxüsus, qitənin enerji təhlükəsizliyi faktoru Brüsseli Bakı ilə mövcud anlaşılmazlıqları aradan qaldırmağa sövq edir.

8

## Vətənin bütövlük günü



Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü qətiyyətli siyasətin, prinsipial mövqeyin sayəsində tarixi qələbəyə imza atdıq. Laçın-Xankəndi yolunun başlanğıcında, Həkəri çayı üzərində Azərbaycanın sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması ilə dövlətimiz öz suveren hüquqlarını bərpa etdiyini bütün dünya qarşısında bir daha təsdiqlədi.

"23 aprel hadisələri çox önəmli bir tarixdir. O vaxt və ondan sonra mən demişdim ki, 23 aprel tarixində bizim ərazi bütövlüyümüz tam bərpa edildi. Bütün sərhədlərə biz nəzarət etməyə başlamışdıq və bir daha göstərdik ki, bu torpaqların sahibləri bizik", - deyə qalib lider İlham Əliyev həmin gün atılan qətiyyətli addımın tarixi əhəmiyyətini və xalqımızın sarsılmaz mövqeyini birmənalı şəkildə dünyaya bəyan etmişdi.

Azərbaycan 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin ərazilərimizi tərk etmələri ilə bağlı qəbul etdiyi 4 qətnaməsini öz gücü ilə icra etdi. Çünki onilliklər boyu aparılan danışıqlar heç bir səmərə vermirdi. Əksinə, iki ölkə arasında münaqişənin həlli dalana dirənmişdi. Vəziyyətin bu hala gəlməsində isə ATƏT-in keçmiş Minsk qrupunun xüsusi rolu olmuşdu. Yarıtmaz həmsədrlər, eləcə də dünya erməniliyinin rüşvətlə ələ aldığı digər qərəzli Qərb siyasətçiləri elə hesab edirdilər ki, münaqişəni olduğu kimi dondurmaqla Azərbaycanı işğal siyasəti ilə barışmağa məcbur edəcəklər. Eyni zamanda alternativ variant kimi müharibə versiyası da qətiyyən qəbul edilmirdi.

2020-ci il noyabrın 10-da İrəvanı təslimçilik aktına imza atmağa məcbur edən Bakı bununla həm torpaqlarının 30 illik işğalına son qoydu, həm də dünyada mövcud olan bu tip münaqişələrin necə həll olunması ilə bağlı unikal model təqdim etdi.

9



## İqtisadi əlaqələr məsafə tanımır

Latviya daim Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini və bundan sonra da dəstəkləyəcəyini bəyan edir. Azərbaycanın mühüm iqtisadi tərəfdaş olduğunu bu ölkədə yaxşı bilirlər. Ona görə də Latviya Azərbaycanla bütün sahələr üzrə tərəfdaşlıq münasibətlərini inkişaf etdirməyə maraqlıdır.

Armands Krauzenin Azərbaycanın istehsal etdiyi məhsulların Avropa bazarına çıxışına kömək etməyə hazır olduqlarını diqqətə çatdırması da bundan qaynaqlanır. Şuşada komissiyanın latviyalı həmsədri işgüzar əlaqələrin gücləndirilməsi və birgə təşəbbüslərin dəstəklənməsi üçün effektiv platforma kimi Latviya-Azərbaycan Biznes Əməkdaşlıq Şurasının yaradılmasının vacib olduğunu da vurğulamışdır.

7

## Minatəmizləyənlərin ailə üzvlərinə dövlət qayğısı gücləndirilir

Azərbaycan dövləti təhlükəni və minatəmizləyənlərin üzərinə düşən məsuliyyəti nəzərə alaraq onların sosial müdafiəsini gücləndirmək istiqamətində mühüm addımlar atır. Bu addımlardan biri də minatəmizləmə fəaliyyəti zamanı həlak olan və ya aldığı xəsarətlər nəticəsində həyatını itirən şəxslərin ailə üzvləri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsidir. Bu qərar təkcə sosial yardım deyil, həm də dövlətin bu sahədə çalışan insanlara verdiyi yüksək dəyərin göstəricisidir.



Fərmana əsasən, minatəmizləmə fəaliyyəti zamanı partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya sonradan aldığı xəsarətlərdən vəfat edən minatəmizləyənlərin ailə üzvlərinə aylıq 700 manat məbləğində Prezident təqaüdü müəyyən olunub. Bu məbləğ ailə üzvlərinin sayına uyğun olaraq bərabər hissələrə bölünür. Təqaüdün verilməsi isə dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

Bu təqaüdün əhatə etdiyi şəxslər dəqiq şəkildə müəyyən olunub. Belə ki, mərhum minatəmizləyənin dul həyat yoldaşı, valideynləri, 18 yaşına çatmamış övladları bu sosial təminatdan yararlanır. Əgər övladları təhsil alırlarsa, bu hüquq onların təhsil müddəti bitənədək, lakin maksimum 23 yaşına qədər qüvvədə qalır. Eyni zamanda 18 yaşına çatmamışdan əvvəl əlilliyi müəyyən edilmiş və 18 yaşdan yuxarı əlilliyi olan övladlar da bu təqaüdü almaq hüququna malikdirlər. Bundan əlavə, uşaq evlərində tərbiyə olunan qardaş və bacılar, həmçinin birinci növbədə digər qohumları olmayan baba və nənələr də bu sosial təminat sisteminə daxil ediliblər.

9

**Latviya Prezidenti Edqars Rinkeviçsin Azərbaycana rəsmi səfəri**

# Strateji tərəfdaş və dost

## Rəsmi qarşılanma mərasimi

**Aprelin 22-də Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Latviya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Latviya Prezidenti Edqars Rinkeviçsi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Latviya Prezidentinə raport verdi.

Latviya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Edqars Rinkeviçsə, Latviya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Latviya Prezidenti Edqars Rinkeviçsin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.







## Azərbaycan Prezidenti İlham Əliyevin Latviya Prezidenti ilə təkbətək görüşü olub



Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə təkbətək görüşü olub.

## Azərbaycan və Latviya prezidentlərinin geniş tərkibdə görüşü keçirilib



**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə geniş tərkibdə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Azərbaycan Prezidenti İlham ƏLİYEV** dedi:

- Cənab Prezident!

Nümayəndə heyətinin üzvləri!

Əziz qonaqlar!

Bir daha xoş gəlmisiniz. Cənab Prezidentlə müxtəlif məsələlər ətrafında əla müzakirəmiz oldu və işimizi nümayəndə heyətləri ilə birgə davam etdiririk. Bilirəm ki, səfərdən əvvəl çox işlər görülmüşdür, o cümlədən Hökumətlərarası Komissiyanın iclası çox uğurla keçirilmişdir. Həmçinin əminəm ki, bu gün keçiriləcək biznes-forum birgə işin aparılmasına olan qarşılıqlı maraq əsasında yaxşı nəticələr verəcək.

Təbii ki, aramızda çox yaxşı siyasi əlaqələr mövcuddur. Bu gün onlar bir daha təsdiqləndi. Ticarəti və qarşılıqlı sərmayələri artırmaq, energetika, daşımalar, rəqəmsallaşma və burada Azərbaycanda fəal şəkildə təşviq etdiyimiz bütün sahələrə aid olan məsələləri həll etmək məqsədilə əməkdaşlığımıza dair praktiki məsələləri nəzərdən keçirməliyik.

Əlbəttə, biz regionumuzda siyasi hadisələri geniş şəkildə müzakirə etdik və həmin müzakirəni cənab Prezidentlə davam etdirəcəyik. Əminəm ki, nümayəndə heyətlərinin üzvləri də bu vaxtdan istifadə edərək, ikitərəfli tərəfdaşlığımızın ən mühüm məsələlərini müzakirə edəcəklər. Mən dəvətimi qəbul etdiyinə görə cənab Prezidentə olduqca minnətdaram, onu yenidən görməyimə çox şadam. O, əvvəlki vəzifəsində olarkən Bakıda dəfələrlə olub. Mən hər zaman görüşlərimizdən məmnun qalmışam. Sizə bu dəfə də Azərbaycanda xoş səfər arzu edirəm. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra **Latviya Prezidenti Edqars RİNKEVİÇS** çıxış edərək dedi:

- Çox sağ olun, cənab Prezident. Dəvətə və çox səmimi qonaqpərvərliyə görə olduqca minnətdaram.

Görüşümüz əsnasında Sizə söylədiyim kimi, Bakıya sonuncu səfərimdən, demək olar ki, 9 il ötür. O, 2017-ci ildə baş tutmuşdu. Şəhəri tanımaq olmur. Düşünürəm ki, bu vaxta qədər şahidi olduğumuz inkişaf böyük təəssürat bağışlayır. Mən Sizi və Azərbaycan xalqını həm siyasi, həm iqtisadi inkişaf, həmçinin uzun çəkən məsələnin həlli münasibətilə təbrik etmək istəyirəm.

Haqlı olaraq qeyd etdiyiniz kimi, təkbətək görüşümüzdə Yaxın Şərqdə və Avropada siyasi hadisələrə, regional təhlükəsizliyə aid bir sıra məsələləri artıq müzakirə etdik. Təsdiqləmək və bir daha vurğulamaq istədiyim məqam odur ki, Latviya Azərbaycanı strateji tərəfdaş və dost hesab edir. Siyasi və iqtisadi əməkdaşlığımızın real dəyərini görürük. Nümayəndə heyətimdən gördüyünüz kimi, hətta ikinci cərgədə də çox təmsilçilərimiz var. Nümayəndə heyətini ixtisar edə bilmirdim, çünki hamı burada olmağa, çox praktiki məsələləri müzakirə etməyə maraq göstərir. Mən həmçinin Hökumətlərarası Komissiyanın işini alqışlamaq istəyirəm.

◆ Latviya Prezidenti Edqars Rinkeviçsin Azərbaycana rəsmi səfəri

# Strateji tərəfdaş və dost

## Azərbaycan ilə Latviya arasında imzalanmış sənədlər mübadilə edilib





**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin iştirakı ilə Azərbaycanla Latviya arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Prezidenti Edqars Rinkeviçs "Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyanatı"nı qəbul etdilər.

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Latviya Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın daxili işlər naziri Vilayət Eyvazov və Latviyanın daxili işlər üzrə dövlət naziri Dimitrijs Trofimovs mübadilə etdilər.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Latviya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Niyyət Bəyannaməsi"ni Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov və Latviyanın kənd təsərrüfatı naziri Armands Krauze mübadilə etdilər.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Latviya Respublikasının Xarici İşlər Nazirliyi arasında konsulluq sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Latviyanın xarici işlər naziri Baiba Braze mübadilə etdilər.

"Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Latviya Respublikasının Dövlət Bitki Mühafizəsi Xidməti arasında bitki sağlamlığı və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov və Latviyanın kənd təsərrüfatı naziri Armands Krauze mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə Latviya Respublikasının Dövlət Sərhəd Mühafizəsi arasında 2026-2027-ci illər üzrə İkitərəfli Əməkdaşlıq Planı"nı Azərbaycanın Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev və Latviyanın Dövlət Sərhəd Mühafizəsinin rəisi Guntis Pujats mübadilə etdilər.

## Latviya Prezidentinin şərəfinə rəsmi lanç



Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin şərəfinə rəsmi lanç verilib.

## Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Prezidenti Edqars Rinkeviçs mətbuata bəyanatlarla çıxış ediblər

**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış etdi.





### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident!

Əziz qonaqlar!

Xanımlar və cənablar!

Cənab Prezident, Azərbaycana bir daha xoş gəlmisiniz. Çox şadam ki, dəvətimi qəbul etmisiniz və ölkəmizə rəsmi səfərə gəlmisiniz. Siz əvvəlki vəzifənizdə olarkən dəfələrlə Azərbaycanda olmusunuz. Lakin Prezident kimi ilk dəfədir səfər edirsiniz. Mənim əvvəlki görüşlərdən, o cümlədən ötən ilin yanvarında Davosda keçirilmiş görüşdən çox əziz xatirələrim var. Bizimlə olduğunuza görə bir daha minnətdaram. Əminəm ki, səfər ölkələrimiz arasında ikitərəfli münasibətləri gücləndirəcək, müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaradacaq.

Cənab Prezidentlə ikitərəfli gündəliyimizin müxtəlif aspektlərini, o cümlədən beynəlxalq əhəmiyyət kəsb edən məsələləri həm təkbətək görüşdə, həm də nümayəndə heyətlərinin iştirakı ilə geniş şəkildə müzakirə etdik. Şadıq ki, əməkdaşlığımızın çox güclü çərçivəsi var. Doqquz il əvvəl ölkələrimiz arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə hüquqi çərçivəni yaradır və münasibətlərimizi ən yüksək səviyyəyə qaldırır. Biz elə bunun əsasında tərəfdaşlığı müxtəlif sahələrdə inkişaf etdirmək üçün sıx çalışmışıq.

Cəmi bir həftə əvvəl Birgə Hökumətlərarası Komissiya Azərbaycanda - Qarabağda, Şuşada görüş keçirib və biz həmsədrlərin verdiyi məlumatları dinlədik, çox perspektivli planlar, bir yerdə görüləcək çoxlu işlər qeyd edildi. Bu gün keçiriləcək biznes-forum işgüzar əlaqələrin qurulmasında, qarşılıqlı sərmayələr üçün imkanların tapılmasında, birgə istehsalın və bir sıra digər işlərin qurulmasında çox böyük potensialın növbəti təzahürüdür. Mən iştirakçıların siyahısına baxdım. Hər iki tərəfdən kifayət qədər böyük təmsilçilik var. Ümidvarıq ki, bu cür qarşılıqlı fəaliyyət praktiki müqavilələrlə nəticələnəcək.

Biz həmçinin razılığa gəldik ki, planlar, proqramlar və sərmayə imkanları barədə bir-birimizə daim məlumat verəcəyik ki, hər iki ölkə şirkətlərinin informasiyaya çıxışı olsun və onlar öz fəaliyyətini planlaşdıra bilsinlər. Düşünürəm ki, hər iki ölkəyə yatırılacaq sərmayələr çox gözəçarpan nəticələr verə biləcək. Azərbaycanın istər dövlət, istərsə də özəl sərmayədarları bu cür fəaliyyətə hazırdır və ümid edirəm ki, biznes-forum bu vaxta qədər, əfsuslar ki, bir az mülayim görünən qarşılıqlı ticarətimizin dövriyyəsinin artırılmasında həqiqətən mühüm mərhələyə çevriləcək.

Nəzərdən keçirmək razılığına gəldiyimiz digər sahə birbaşa uçuşlardır. Bu, xüsusən də müəyyən pozulmalar, həmçinin bəzi hava şirkətləri üçün aviayanacağın müəyyən dərəcədə çatışmaması ilə səciyyələnən indiki dövrə təsadüf edir və xoşbəxtlikdən Azərbaycanın hava şirkəti bundan əziyyət çəkmir. Bu, digər bir fürsət ola bilər.

Təbii ki, insanlar arasında təmaslar və təhsil sahəsi də var. Şadıq ki, Latviyada 450-dən artıq azərbaycanlı tələbə təhsil alır və əminəm ki, onların hamısı gözəl ölkənizdə olmaqdan məmnundur. Çoxsaylı səfərlərim yadıma düşür və Sizi ölkənizin inkişafında əldə olunmuş bütün nailiyyətlər münasibətilə təbrik etmək istəyirəm.

Biz həmçinin Cənubi Qafqaz və Baltik regionunda təhlükəsizlik məsələlərini, regional inkişafı və ətrafımızda baş verən hadisələri müzakirə etdik. Mən cənab Prezidentə Azərbaycanla Ermənistan arasında çox perspektivli sülh prosesinə aid ən son məlumatları çatdırdım. Əslində, ötən ilin avqust ayından etibarən hər iki ölkə Prezident Tramp tərəfindən Ağ Evə dəvət olunandan və Birgə Bəyanat imzalanandan sonra və xarici işlər nazirlərinin sülh sazişinin mətnini parafladıqdan sonra bizdə de-fakto sülh var. Həmin vaxtdan etibarən sülh prosesində xeyli müsbət dinamika yaşandı, o cümlədən ticarət başlandı, xüsusən də Azərbaycandan Ermənistana yanacaq məhsulları təchiz olundu, vətəndaş cəmiyyəti və media nümayəndələri arasında görüşlər keçirildi və bütün bunlar uzun illər müharibə şəraitində olan ölkələr arasında, həmçinin normal mühitin yaradılmasına töhfə verir. Bir sözlə, bu nümunə göstərir ki, məhz siyasi iradə və siyasi müdriklik, o cümlədən gələcəyə strateji baxışlar hadisələri təyin edir: Siz ya sonsuz müharibəni və ya müharibələri davam etdirirsiniz, yaxud beynəlxalq hüquq əsasında istədiyinizə nail olduqda birdəfəlik dayanırsınız və sülhə hazır olduğunuzu nümayiş etdirirsiniz. Düşünürəm ki, həmin nümunə hələ də müharibədə olan ölkələr üçün vacib ola bilər.

Bir daha söyləmək istərdim ki, ölkələrimiz arasında münasibətlər çox möhkəm çərçivəyə əsaslanır. Eyni zamanda düşünürəm ki, onun mühüm hissəsini cənab Prezidentlə olan şəxsi münasibətlərimiz təşkil edir. Biz bir-birimizi uzun illərdir ki, tanıyırıq və fikrimcə, bəlkə də 20 ilə yaxındır. Şəxsən mən çox şadam ki, əziz dostumuzu və onun nümayəndə heyətini Bakıda qəbul edirəm. Bir daha xoş gəlmisiniz və Sizə xoş səfər arzu edirəm.

❖❖❖

Sonra Latviya Prezidenti Edqars Rinkeviçs bəyanatla çıxış etdi.

### Prezident Edqars Rinkeviçsin bəyanatı

- Çox sağ olun, cənab Prezident!

Əvvəla, mən Latviya nümayəndə heyəti adından və öz adımdan Sizin çox böyük qonaqpərvərliyinizə və səmimi qəbula görə minnətdarlığımı ifadə etmək istəyirəm.

Hesab edirəm ki, bu gün apardığımız müzakirələr çox müsbət, praqmatik olmuşdur və gələcək əməkdaşlığa yönəlmişdir.

Mənim Bakıya rəsmi səfərim, mənim Azərbaycan Respublikasına rəsmi səfərim, əslində, 2017-ci ildə imzalanmış strateji tərəfdaşlığımızın prinsiplərini bir daha təsdiq edir.

Düşünürəm ki, bu gün qəbul etdiyimiz bəyanatda strateji tərəfdaşlığımızı necə irəli aparmaq istədiyimizlə bağlı bəzi addımlar atmışıq.

İcazə verin onu da deyim ki, nümayəndə heyətimə həm də bir neçə hökumət rəsmisi, - xarici işlər naziri, kənd təsərrüfatı naziri, Daxili İşlər Nazirliyinin dövlət katibi, Sərhəd Xidmətinin rəisi, - həm də geniş biznes təmsilçiləri daxildir. Mən iqtisadi əməkdaşlığa şərait yaratmaq üçün bu gün burada, Bakıda keçiriləcək biznes-forumunu səbirsizliklə gözləyirəm.

İqtisadi əməkdaşlığa gəldikdə, hesab edirəm və sizin də çox diplomatik şəkildə ifadə etdiyiniz qiymətləndirmənizlə tam razıyam ki, aramızdakı ticarət dövriyyəsi çox mülayimdir və artırılmalıdır. İnanıram ki, müdafiə sənayesi, nəqliyyat, əczaçılıq sahələrində çoxlu imkanlar var və biz təcrübələrimizin necə paylaşılması ilə bağlı bəzi praktiki yolları müzakirə etdik.

Bildiyiniz kimi, Latviya meşələr ölkəsidir və biz həm Qarabağın müasirləşməsi və yenidən qurulmasında daha çox meşələrin salınması ilə bağlı, cənab Prezident, Sizin qarşıya qoyduğunuz planları, həm də bu məsələləri daha geniş anlamda müzakirə etdik. Hesab edirəm ki, bu məsələdə bizim məsləhətimiz və təcrübəmiz sizin üçün faydalı ola bilər və biz müvafiq nazirlərə bu sahədə çalışmaq tapşırığını verdik.

Həmçinin düşünürəm ki, keçən həftə Azərbaycanda, Şuşada keçirilən Hökumətlərarası Komissiyanın iclasında artıq bəzi praktiki məsələlər müzakirə olunub. Ümidvaram ki, həm komissiyanın işindən, həm də bu gün mübadilə etdiyimiz ideya və qəbul etdiyimiz qərarların praktiki nəticələrini görəcəyik.

İcazə verin, vacib olduğunu düşündüyüm digər mövzuları da diqqətinizə çatdırım.

Birincisi, mən cənab Prezidenti və bütün Azərbaycan xalqını Azərbaycanla Ermənistan arasında sülh sazişi prosesinə başlanılması münasibətilə təbrik etmək istəyirəm. Biz bu məsələnin sürətli şəkildə irəliləməsinə ümid edirik. Biz bunu və Sizin bu məsələdəki mövqeyinizi çox dəstəkləyirik. Ümid edirik ki, təkcə nəinki regionun təhlükəsizliyi üçün, ümumilikdə bütün dünya üçün önəmli olan bu sazişin yekunlaşmasını görəcəyik.

Həmçinin vurğulamaq istədiyim digər bir məsələ də var. Biz Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq sahəsində müsbət addımların atıldığını müşahidə edirik. Biz bir məxsusi məsələni müzakirə etdik və mən bu məsələdə bizim tam dəstəyimizi vurğulamaq istəyirəm. Bu məsələ vizasız rejimin tətbiq edilməsidir, çünki biz çoxlu məsələləri müzakirə edə bilirik və biz bağlantı, daşımalar, birbaşa uçuşlarla bağlı bu qənaətə gəldik. Lakin Azərbaycan vətəndaşlarının Avropa İttifaqına və Avropa vətəndaşlarının sizin gözəl ölkənizə sərbəst çıxışı vacibdir. Çünki təkcə nəinki şirkətlər üçün, həmçinin xalqlararası təmaslar və turizm üçün böyük potensial mövcuddur.

Əlbəttə ki, biz Azərbaycanın xüsusilə Trans-Xəzər nəqliyyat dəhlizində, həmçinin energetika sahəsində rolunu həm Latviya, həm də ümumilikdə Avropa İttifaqı üçün strateji bir dəyər kimi görürük.

Yekun olaraq icazə verin deyim ki, biz Prezidentin dediyi kimi, regionda cərəyan edən hadisələr barədə çoxlu müzakirələr apardıq. Biz Azərbaycanın Ukraynaya humanitar yardımını yüksək dəyərləndiririk. Lakin biz eyni zamanda cənab Prezident və onun heyətinin İranda və Yaxın Şərqdə cərəyan edən hadisələrlə bağlı söylədiklərinə də qulaq asırıq. Bir daha fürsətdən istifadə edərək, bu yaxınlarda Azərbaycana qarşı edilmiş dron hücumları ilə bağlı Latviyanın bu məsələdə Azərbaycanla tam həmrəy olduğunu ifadə etmək istəyirəm.

Biz vəziyyətin normallaşması üçün atıla biləcək və atılmalı addımları müzakirə etdik. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olaraq Latviya bütün ölkələrlə işləməyə və onları dinləməyə hazırdır. Regional məsələlərə gəldikdə, Azərbaycanın səsini eşitmək və müdrikliyini görmək olduqca vacibdir.

Cənab Prezident, Sizin söylədiyiniz kimi, biz dəfələrlə görüşmüşük. Əsasən mən xarici işlər naziri olaraq Bakıya səfər edəndə, sonra isə ötən il Davosda görüşlər keçirdik. İndi isə rəsmi səfərlə ölkənizə gəlməkdən böyük məmnunluq duyduğumu ifadə edirəm.

İcazə verin deyim ki, biz Sizi Riqada qarşılamağı səbirsizliklə gözləyirik. Biz elə indicə hesabladıq, sonuncu səfərinizdən, demək olar ki, 10 il ötüb. COVID illəri və bəzi digər məsələlər olmuşdur, lakin belə mübadilələr həmişə hər iki ölkə üçün faydalıdır. Belə mübadilələr, aramızda olan dostluq siyasi, iqtisadi və mədəni mübadilənin aparılmasına şərait yaradır.

Mən ilk dəfə Bakıda, Azərbaycanda 2002-ci ildə olmuşam. Sonra isə dəfələrlə gəlmişəm. Düşünürəm ki, bu, mənim altıncı və ya yeddinci səfərimdir. Sayını itirmişəm. Mən, sadəcə, hər zaman ölkənizin, xüsusilə də paytaxtınızın necə inkişaf etdiyini gördükdə heyran oluram. Çünki nazirlər və prezidentlər adətən paytaxtdan kənarda çox şeyi görmürlər. Biz Sizin bu məsələyə şəxsən diqqət yetirdiyinizi və bu prosesdə iştirak etdiyinizi bilirik.

İcazə verin, nitqimin sonunda, cənab Prezident, Sizə və bütün Azərbaycan xalqına ən xoş arzularımı çatdırım. Mən bu gün və bu rəsmi səfərdən əlavə bir çox görüşlərdə bizim sıx əməkdaşlığımızın davam etdirilməsini səbirsizliklə gözləyirəm.

Çox sağ olun, cənab Prezident.

◆ Latviya Prezidenti Edqars Rinkeviçsin Azərbaycana rəsmi səfəri

# Strateji tərəfdaş və dost

## Azərbaycan Prezidenti İlham Əliyev və Latviya Prezidenti Edqars Rinkeviçs Bakıda keçirilən Azərbaycan-Latviya biznes-forumunda iştirak ediblər

**Aprelin 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin iştirakı ilə Azərbaycan-Latviya biznes-forumu keçirilib.**

**AZƏRTAC xəbər verir ki, dövlət başçıları tədbirdə çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti çıxış etdi.**






### Prezident İlham Əliyevin çıxışı

- Cənab Prezident, rəsmi nümayəndə heyətinin üzvləri, Latviyadan gələn qonaqlar, xanımlar və cənablar.

Latviya Prezidentini rəsmi səfərdə qəbul etməkdən çox məmnunam. Bizim əla müzakirələrimiz oldu və sənədlər imzalandı. Müzakirə etdiyimiz bir çox məsələlər arasında iqtisadi tərəfdaşlıq mövzusu da var idi. Xüsusilə bu gün təşkil olunan biznes-forum birlikdə çalışmaq üçün qarşılıqlı istəyimizi real şəkildə nümayiş etdirir.

Məmnunam ki, cənab Prezidenti Latviyadan olan iş adamlarının böyük qrupu müşayiət edir. Əminəm ki, onların azərbaycanlı həmkarları ilə təmasları maraqlı və məhsuldar olacaq. Əlbəttə ki, istənilən biznes fəaliyyətinin arxasında bir neçə amil dayanır - ilk növbədə biznes qurduğunuz ölkədəki sabitlik, proqnozlaşdırılma imkanı, biznes və investisiya mühiti, həmçinin bağlantılar, ixrac bazarlarına çıxış imkanları və daxili bazarın həcmi kimi bir çox digər amillər.

Biz Azərbaycanda ölkəni tamamilə neft və qazdan asılı olan bir dövlətdən öz iqtisadiyyatının şaxələndirilməsi prosesi ilə fəxr edə biləcək bir ölkəyə çevirmək üçün çox işlər gördük. Ümumi daxili məhsulun strukturuna nəzər salsaq, son dörd-beş il ərzində sürətli artımın şahidi olarıq. ÜDM-də qeyri-neft sənayesinin payı 50 faizdən artaraq 70 faizi keçib və bu proses davam edir. Bu isə o deməkdir ki, iqtisadiyyatın şaxələndirilməsi artıq reallıqdır.

İndi biz ixracatımızın şaxələndirilməsi üzərində fəal işləyirik, baxmayaraq ki, bunu etmək çətin olacaq. Çünki Azərbaycanda təbii qaz hasilatı artır və artacaq. Hasil etdiyimiz qazın böyük hissəsi isə ixrac olunur. Beləliklə, qeyri-neft-qaz sektoruna aid sənaye və iqtisadiyyat artan hasilat profili və beynəlxalq bazarlarda, ilk növbədə Avropa bazarlarında artan tələbatla uzlaşmalıdır.

İstər yerli, istərsə də xarici investorlar üçün maliyyə sabitliyi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə də yaxşı nailiyyətlər haqqında danışa bilərik. Maliyyə sistemimiz sabitdir. Biz strateji plana əsaslanaraq borclanmadan asılılığımızı tədricən azaltdıq. Bu gün biz yalnız yüksək texnoloji fəaliyyət tələb edən layihələr üçün Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı və digər bu kimi aparıcı beynəlxalq qurumlardan kredit alırıq.

Xarici borcun azaldılması planının yerinə yetirildiyini düşünürəm. Xarici borcumuz ÜDM-in 6,1 faizinə bərabərdir. Valyuta və qızıl ehtiyatlarımız xarici borcumuzu 18 dəfədən çox üstələyir. Başqa sözlə, biz xarici öhdəliklərimizi, zənnimcə, bir neçə ay ərzində sıfra endirə bilərik.

Lakin təbii ki, əlavə investisiyalara böyük ehtiyac var. Bu da ilk növbədə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazilərinin yenidən qurulmasına və bərpasına yönəldilib. İnvestisiya prioritetləri aydındır. Biz bunu artıq qismən müzakirə etmişik və müzakirə etməyə davam edəcəyik.

Həmçinin əminəm ki, azərbaycanlı həmkarlar qonaqlara rəqəmlər barədə də məlumat veriblər. Son iyirmi il ərzində iqtisadiyyatımıza 350 milyard ABŞ dollarından çox investisiya qoyulub ki, bunun da təqribən yarısı - 170 milyard ABŞ dolları xarici mənbələrdən gələn investisiyalardır. Beləliklə, investisiya üçün əlverişli mühitin yaradılması qarşımızda duran hədəflərdən biri idi və buna böyük mənada nail olunub.

Planlarımıza gəlincə, biz Azərbaycanda və həmçinin xaricdə, əsasən qonşu ölkələrdəki və Avropa İttifaqı zonasındakı enerji aktivlərinə investisiya qoymağa davam edirik. Bu, Avropa Komissiyası tərəfindən də dəstəklənir. Avropa Komissiyası ilə bir neçə əməkdaşlıq formatımız var ki, onlardan biri də enerji əməkdaşlığıdır.

Avropa Komissiyası öz ictimai bəyanatlarında hər zaman Azərbaycanı enerji sahəsində etibarlı tərəfdaş adlandırır və bu enerji əməkdaşlığı böyüyür. Biz neft satışı ilə başladıq, indi təbii qaz, elektrik enerjisi, neft-kimya məhsulları ixrac edirik və "yaşıl enerji" ixrac etməyi planlaşdırırıq. Portfelimizdə olan sərmayə sahələrindən biri də nəhəng Günəş və külək potensialına malik bərpaolunan enerji mənbələridir.

Biz artıq böyük oyunçuların ciddi marağına səbəb olmuşuq. Bizim planımız, - hansı ki, təkcə niyyət deyil, həm də imzalanmış hüquqi qüvvəyə malik müqavilələrə əsaslanır, - 2032-ci ilə qədər 8 giqavatlıq Günəş, külək və hidroenerji gücünə malik olmaqdır və bu, tamamilə realdır. Biz elektrik enerjisi istehsalı üçün istifadə etdiyimiz təbii qazı böyük ölçüdə bərpaolunan enerji ilə əvəz edəcəyik. Bu isə hazırda beynəlxalq bazarlarda çox ehtiyac duyulan bir neçə milyard kubmetr qaza qənaət etməyimizə imkan verəcək.

Bu qaza hər zaman ehtiyac olub, son bir neçə ildə ehtiyac artmışdı, son bir neçə ayda isə daha da artmış oldu. Planımız istehsalı və mütləq şəkildə ixracı artırmaqdır. Bu gün Avropa İttifaqının 10 üzvü Azərbaycandan təbii qaz alır. Ölkələrin ümumi sayı 16-dır və bu göstərici üzrə biz dünyada birinci yerdəyik.

Biz ən böyük hasilatçı və ixracatçı deyilik, bizdən daha böyük oyunçular var. Lakin boru kəmərləri vasitəsilə qaz ixrac edən ölkələr arasında təchizat coğrafiyasına görə biz birinciyik.

Avropa İttifaqına üzv olan ölkələr üçün Azərbaycan qazı və nefti onların enerji istehlakı portfelinin ən böyük hissəsini təşkil edir. Əsasən keçmişdə, indi və gələcəkdə diqqət yetirəcəyimiz digər sahə bağlantıdır. Burada coğrafiya investisiyalarımızla və Azərbaycanın açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün uzunmüddətli siyasətlə tamamlanır. Bu, artıq baş verib və Şərqdən Qərbə və əks istiqamətdə, Şimaldan Cənuba və əks istiqamətdə nəqliyyat dəhlizləri artıq fəaliyyət göstərir. Azərbaycan ərazisində aparılan bütün tikinti işləri tamamlanmışdır. İndi gördüyümüz işlər isə müasirləşməyə, yeni fiziki infrastrukturun yaradılmasına, rəqəmsallaşdırılmaya, o cümlədən süni zəka tərəfindən yaradılan imkanlara investisiyaların yatırılmasından ibarətdir ki, Azərbaycan ərazisindən daşımalar bugünkü geosiyasi vəziyyətdə nəinki təkcə ən təhlükəsiz, lakin eyni zamanda daşıma haqları və zamanı nöqteyi-nəzərindən rəqabətli olsun. Burada investisiyalar üçün böyük imkanlar var, çünki bu gün Azərbaycan olmadan Şərq və Qərb arasında bağlantı problemlidir. Dediyim kimi, biz buraya çoxlu investisiyalar yatırmışıq və dost ölkələrlə, birbaşa qonşularımızla və qonşularımızın qonşuları ilə əməkdaşlıq edərək yüklər üçün təhlükəsiz və etibarlı nəqliyyat marşrutunu təmin edə bilmişik. Yeri gəlmişkən, Azərbaycan ərazisindən keçən yüklərin həcmi ildən-ilə artır.

Bu gün biz əsasən ölkələrimiz arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıqla bağlı olan fürsətləri də müzakirə etdik. Birgə İqtisadi Komissiyanın həmsədrlərinin hər ikisi kənd təsərrüfatı naziridir. Əlbəttə ki, əhalimizin qırx faizindən çoxunun kənd yerlərində yaşadığını nəzərə alaraq bu məsələ bizim hökumətimiz üçün prioritetlərdən biri olmağa davam edəcək. Orada yaxşı infrastruktur yaradılıb və rayonlarda biznes imkanları var. Əlbəttə ki, onlar paytaxtda olan biznes imkanlarından fərqlidir. Buna görə də kənd təsərrüfatı, turizm, su ehtiyatlarının idarə edilməsi - bütün bu sahələrdə dövlət və özəl şirkətlər Azərbaycanda layihələr həyata keçirirlər. Hesab edirəm ki, Latviya investorları üçün bu fürsətləri nəzərdən keçirmək də maraqlı olardı. Həmçinin Ələt Azad İqtisadi Zonası da yaxşı xidmətləri təmin edir və böyük həcmdə xarici investisiyaların cəlb olunmasına artıq imkan yaradan investisiyayönümlü qanunvericilik mövcuddur. Buna baxmayaraq, bu gün aydındır ki, xarici investisiyaları cəlb etmək asan bir iş deyil. Lakin hesab edirəm ki, qanunverici baza və əsas dəniz limanlarına və dəmir yoluna yaxınlıq Ələt Azad İqtisadi Zonasını cəlbedici edir.

Müzakirə etdiyimiz və bəlkə də potensial əməkdaşlıq sahəsi olacaq məsələlərdən biri də müdafiə sənayesidir. Biz hər iki ölkənin bu sahədə imkanlarını fəal şəkildə inkişaf etdirdiyini öyrəndik. Bizə gəldikdə isə biz müdafiə sənayesi sahəsində fəaliyyət göstərən şirkətlərimizin, - söhbət özəl və dövlət şirkətlərindən gedir, - məhsullarını böyük sayda ölkələrə artıq ixrac edirik. Beləliklə birgə istehsal sahəsində əməkdaşlıq, işbirliyinin yaradılması bizim nəzərdən keçirə biləcəyimiz məsələlər ola bilər. Bir çox digər məsələlər də var.

Bu gün etdiyimiz qısa çıxışlarımızda tərəfdaşlığın bütün sahələrini əhatə etmək çətindir. Lakin mən əminəm ki, forum ərzində və ondan sonrakı təmaslarda, - çünki əlbəttə, bu tədbirin təcrid edilməməsi üçün sonrakı təmaslar olmalıdır, - bir çox digər imkanlar araşdırılacaqdır. Sözsüz ki, biz bir ölkə olaraq və mən əminəm ki, biznes dairələrimiz də Latviyada, Sizin prioritet hesab etdiyiniz layihələrdə investisiya imkanlarında maraqlıdır.

Bu gün müzakirə etdiyimiz kimi, biz hər iki ölkənin uğurla əməkdaşlıq edə biləcəyi potensial layihələrin siyahısını hazırlaya bilərik. Sonuncu məsələ isə Prezidentin səfərinin əhəmiyyəti ilə bağlıdır. Mən dəvətimi qəbul etdiyinizə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Mən təkbətək görüşümüzdən, nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdən və nahar zamanı apardığımız müzakirədən çox məmnun qaldım. Bir daha təşəkkür edirəm, Sizə yaxşı vaxt keçirməyi arzu edirəm. Əminəm ki, bizim biznes nümayəndə heyətləri bütün müsbət tendensiyaları dəstəkləyəcəklər. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra Latviya Prezidenti çıxış etdi.

### Prezident Edqars Rinkeviçsin çıxışı

- Cənab Prezident, nazirlər, həm Azərbaycanın, həm də Latviyanın biznes ictimaiyyətinin nümayəndələri.

Əvvəla, cənab Prezident, bizi qəbul etdiyiniz üçün və biznes-forumda iştirak edərək hər iki ölkədən olan sahibkarların qarşısında çıxış etdiyiniz üçün çox sağ olun. Sizin çıxışınızdan sonra danışmaq çox asandır, çünki Siz hər məqamı əhatə etdiniz və mən Sizinlə razılaşa bilərəm. Əlavə edə biləcəyim yeganə məsələ Latviyanın, Latviyada olan imkanların kiçik reklam edilməsi ola bilər. Azərbaycanın prioritetlərini və inkişafını məharətlə vurğuladığınız üçün hesab edirəm, əlavə etmək lazımdır ki, Latviya da Azərbaycanla əməkdaşlığa, ticari əlaqələrini dərinləşdirməyə və genişləndirməyə hazırdır.

Tarixə nəzər salsaq görərik ki, Bakı neft hasil edən şəhərə çevrilən zaman XIX əsrin sonu və XX əsrin əvvəllərində bir çox latviyalı artıq burada mühəndis, müəllim kimi iş taparaq çalışıblar. Bizim həm iqtisadi, həm də mədəni bağlantımız düşündüyümüzdən daha da böyük və daha da genişdir. Hesab edirəm ki, təlatümlərin baş verdiyi bu vaxtda, - mən Avropada və Yaxın Şərqdə baş verən hadisələri, bütün geosiyasi çağırışları nəzərdə tuturam, - biz yaxşı və etibar etdiyimiz tərəfdaşlarımızla yeni əməkdaşlıq yollarını tapmağa çalışırıq. Azərbaycan həmişə Latviya üçün Cənubi Qafqazda və əslində, daha geniş regionda əsas siyasət və ticarət tərəfdaşı olub, ticarət tərəfdaşıdır və ticarət tərəfdaşı olmağa davam edəcəkdir.

Prezidentin elə indicə qeyd etdiyi kimi, müzakirələrimizin əsas hissəsi iqtisadi və ticari əlaqələrə həsr olunmuşdur. Mən, sadəcə, cənab Prezidentin dediyini təkrarlamaq istəyirəm. Müdafiə sənayesi sahəsində əməkdaşlığı inkişaf etdirmək üçün böyük maraq var. Biz görürük ki, müdafiə sənayesində texnologiyalar çox sürətlə inkişaf edir. Hazırda, elə biz danışdığımız zaman süni zəka, fərqli həll variantları ixtira olunur. Bilirəm ki, burada, Azərbaycanda çox yaxşı potensial var. Lakin mən həmçinin qeyd edə bilərəm ki, Latviyanın da çox sürətlə inkişaf edən müdafiə sənayesi var. Dronlar, dron əleyhinə sistemlər yalnız görünən hissədir, bununla belə, müdafiə sənayemiz müxtəlif layihələr üzərində işləyir və müdafiə sənayemiz həm Avropada, həm kənarda tərəfdaşları tapmaq və onlarla əlaqələri gücləndirməkdə maraqlıdır.

Nəzərə alsaq ki, burada həmin sənayenin nümayəndələri əyləşib, ümidvaram ki, bizim yaxın vaxtlarda müəyyən gözəçarpan və real nəticələrimiz olacaq. Prezidentin təklifi ilə mən Ağ Şəhəri ziyarət etdim. Bu, mənə çox böyük təəssürat bağışladı. Cənab Prezident, mənə söylədilər ki, bu layihə 15 ildən az müddətdə həyata keçirilib. Bildirdilər ki, bu ideya hələ 2011-2012-ci illərdə hazırlanıb və Siz əvvəlcə çirklənmiş əraziləri təmizləməyə müvəffəq oldunuz, sonra isə memarlıq möcüzəsini yaradaraq XXI əsrə uyğun müasir şəhəri yaratdınız.

Bu, Azərbaycanın potensialını göstərir. Həmçinin inanıram ki, istər memarlıq, istərsə də mühəndis təklifləri və ya dizayn sahəsində öz ekspert bacarıqlarını təqdim etmək məqsədilə bu cür layihələrə qoşulmaq və iştirak etmək üçün sərmayədarlara və digər ölkələrə böyük dəvət var. Burada görürəm ki, bizim potensialımız var və Latviyanın bu sahədə çox təklifləri mövcuddur.

Biz həmçinin kənd təsərrüfatı sahəsində əməkdaşlığı xeyli müzakirə etdik. Belə alınıb ki, həm bizim, həm də sizin tərəfdən Hökumətlərarası Komissiyanın həmsədrləri kənd təsərrüfatı nazirləridir. Düşünürəm ki, bu sahədə ticarətin artırılması yollarını araşdırmaq imkanları çox böyükdür, çünki biz rəqabət aparan tərəf deyilik.

Əslində, biz bir-birimizi tamamlaya bilərik. Əlbəttə, həll olunmalı məsələlər hər zaman var. Məsələn, yoxlamalar, sertifikatlaşdırma və sairə. Lakin biz çox müsbət yanaşırıq ki, Azərbaycanın hakimiyyət orqanları və hökuməti bu yaxınlarda qərar qəbul etdilər ki, biz bu sahədə ticarətə və mübadilələrə imkan yaradacağıq. Latviya meşələr ölkəsidir və bizim meşə ehtiyatlarının idarə olunmasında zəngin təcrübəmiz var.

Buradan belə çıxır ki, Latviyada kənd təsərrüfatı naziri meşəçilik məsələlərinə də cavabdehdir. O, həmin sahədə Latviyada hökumətin həyata keçirdiyi bütün siyasətə görə məsuliyyət daşıyır. Beləliklə, biz söylədiyiniz proqramın icrası, ağacların əkilməsi, Azərbaycanda, o cümlədən azad edilmiş ərazilərdə meşəçilik işlərinin icrasında imkanların araşdırılmasına hazırıq və bunda maraqlıyıq. Burada mən həmçinin təhsil və təlim sahələrində əyani əməkdaşlıq imkanını görürəm.

Biz həmçinin digər sahələr, əczaçılıq sənayesi haqqında söhbət apardıq. Bağlantılar məsələsinə nəzər saldıq. Bir daha qeyd edim ki, Latviya hər zaman Şimali və Mərkəzi Avropa üçün giriş qapısı olub.

Bəzi geosiyasi hadisələr cərəyan edir və biz onları maneə kimi deyil, hava limanlarında yük infrastrukturunun, hava daşımalarının, digər daşıma yollarının və logistikanın inkişaf etdirilməsi imkanı kimi görürük. Çünki bu sahələr ölkələrimizin təqdim edəcəyi və əslində, bir-birini tamamladığı sahələrdir. Burada həmçinin Latviyanın xeyli ekspert bacarıqları var. Burada bir az çətinliklə üzləşirəm, yəni əgər mən və ya cənab Prezident hansısa məsələni qeyd etmiriksə, bu o demək deyil ki, biz onu yaddan çıxardıq, yaxud o, vacib deyil. Sadəcə, müəyyən vaxt çərçivəsi var. Bir sözlə, mən çox ümid edirəm ki, cənab Prezidentlə və onun nazirləri ilə apardığımız danışıqlar və bu biznes-forum işgüzar dairələrimizə əməkdaşlıq yollarını tapmaq, yeni ideyaları qazanmaq, ola bilsin, əvvəlki layihələrə yenidən nəzər salmaq, onları gündəmə gətirərək hazırlamaq kimi işlərə təkan verəcək. Düşünürəm ki, Azərbaycan Prezidenti və mənim iştirakımla gördüyünüz və eşitdiyiniz odur ki, biz ticari və iqtisadi əlaqələrimizə önəm veririk. Bəli, bəzi tarixçəmiz oldu. İqtisadi və ticari münasibətləri müəyyən dərəcədə əngəlləyən COVID dövrü oldu.

Çıxış etdiyimiz zaman regionda müəyyən hadisələr cərəyan edir. Lakin düşünürəm ki, hadisələr həm hökumətlərimizi, həm işgüzar dairələri birgə işdən ayırmalı deyil. Avropa İttifaqının, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, o cümlədən NATO-nun üzvü kimi Latviya Azərbaycan ilə həmin təşkilatlar, eləcə də ikitərəfli təşkilatlar arasında əməkdaşlıq üçün işləməyə və dəstək verməyə, iqtisadi əlaqələrin təşviqi üçün bütün ekspert bacarıqları ilə bölüşməyə hazırdır. Biz həmçinin bir faktı da yüksək dəyərləndiririk ki, Azərbaycan nəinki Latviya, o cümlədən bir çox Avropa ölkəsi üçün həm siyasi, həm iqtisadi sahədə və ən vacibi isə energetika sahəsində strateji tərəfdaşdır.

Cənab Prezident Azərbaycanda hazırda hansı işlərin aparıldığını artıq qeyd etdi. İnanın mənə, Avropada və o cümlədən bizim regionda bu, yüksək dəyərləndirilir. Qeyri-müəyyənlik dövründə etibarlı tərəfdaşların əldə olunması ən mühüm sərvətdir.

Latviyanın iqtisadi inkişafı sabitdir. Bizim həll olunmalı çox çağırışlarımız var. Mən tam əminəm ki, elə indicə təsvir etdiyimiz həmin strategiyalar vasitəsilə sərmayə yollarını tapmağa çalışmalıyıq.

Sərmayələr birtərəfli olmur. Düşünürəm ki, ideyalar Azərbaycandan, sərmayədarlardan daxil olur və onlar Latviyaya sərmayə yatırmaq üçün imkanları araşdırmalı və bundan yararlanmalıdırlar. Həmçinin ya birgə müəssisə, yaxud burada müxtəlif texnoloji sahələrdə sərmayədar olmağa maraq göstərən Latviya şirkətləri də var.

Bir sözlə qeyd etmək istəyirəm ki, bizim əla siyasi müzakirələrimiz oldu. Tam razıyam ki, burada müxtəlif məsələlərə aid çox yaxşı müzakirəmiz oldu. Bilirsiniz, bundan kimsə mütləq yararlanmalıdır, çünki cənab Prezidentlə razılaşdığımız kimi, müəyyən vaxtdan sonra görüşəcəyik. Mən həmçinin Azərbaycan Prezidentini Latviya Respublikasına rəsmi səfərə dəvət etdim. Çox güman ki, səfər gələn il baş tutacaq.

Beləliklə, hamımızın - prezidentlərin, hökumətlərin və biznes icmalarının növbəti görüşümüzə qədər təxminən bir il vaxtı var. Çox ümid edirəm ki, sonra Riqada görüşdüyümüz zaman bizim nəinki bölüşməyə gözəl ideyalarımız, o cümlədən bu biznes-forumdan sonra baxacağımız çox konkret nəticələrimiz olacaq. Bir sözlə, biznes-foruma çox məhsuldar iş arzu edirəm.

Mən tədbirdə iştirakına, Latviyaya və həmçinin ticari əlaqələrə çox müsbət münasibət bəslədiyinə görə Prezident Əliyevə şəxsən təşəkkürümü bildirirəm. Mən Sizinlə işimizi davam etdirməyi səmimiyyətlə arzulayıram. Belə də davam etməlidir.

Çox sağ olun.

◆ Latviya Prezidenti Edqars Rinkeviçsin Azərbaycana rəsmi səfəri

# Strateji tərəfdaş və dost

## Milli Məclisin Sədri Sahibə Qafarova Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə görüşüb



**Aprelin 22-də ölkəmizdə rəsmi səfərdə olan Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçsin başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları Milli Məclisin Sədri Sahibə Qafarova qarşılayıb.

Latviya Prezidenti əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Ulu Öndər Heydər Əliyevin adını daşıyan xatirə zalına gələn qonaqlar burada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlara baxıblar. Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs buradakı xatirə kitabına ürək sözlərini yazıb.

Sonra tərəflər arasında geniş tərkibdə görüş keçirilib.

Qonağın bu vəzifədə Azərbaycana ilk səfəri olduğunu vurğulayan spiker ümidvar olduğunu bildirib ki, səfər çərçivəsində keçiriləcək görüşlər və aparılacaq müzakirələr ikitərəfli əlaqələrin inkişafında yeni səhifə açacaq və əməkdaşlığın inkişafına güclü təkan verəcək.

İkitərəfli əlaqələrin inkişafı üçün yüksəksəviyyəli qarşılıqlı səfərlərin və müntəzəm siyasi dialoqun vacibliyini qeyd edən spiker bu baxımdan dövlət başçılarının qarşılıqlı səfərlərinin və müxtəlif tədbirlərdə mütəmadi görüşlərinin qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını vurğulayıb.

2022-ci ildə Latviyaya rəsmi səfərini xatırlayan Milli Məclisin Sədri həmin səfərin nəticələrindən və keçirdiyi görüşlərdən məmnunluqla danışıb.

İki ölkənin parlamentlərarası münasibətlərinə toxunan Milli Məclisin Sədri qeyd edib ki, bu sahədə sıx əməkdaşlıq qurulub. Bu əməkdaşlıqda qarşılıqlı səfərlərin və parlament dostluq qruplarının xüsusi rolu var.

Spiker Sahibə Qafarova 2021-ci ildə Latviya parlamentinin dostluq qrupu üzvlərinin işğaldan azad edilmiş Ağdam və Füzuli şəhərlərinə, 2024-cü ildə isə Seymin sabiq sədri xanım Dayqa Mierinyanın Azərbaycana rəsmi səfəri zamanı işğaldan azad olunmuş Füzuli və Şuşa şəhərlərinə səfər etməsini məmnunluqla xatırlayıb.

Milli Məclisin Sədri bildirib ki, parlamentlərimiz arasında sıx əməkdaşlıq mövcuddur və parlament əməkdaşlığımızın intensivliyi kifayət qədər məmnuniyyətvericidir. Bildirilib ki, parlamentlərin həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyəti iki ölkə arasında əlaqələrin inkişafına, həm də sülh, sabitlik, davamlı inkişaf naminə əməkdaşlığa müsbət təsir göstərə bilər.

Söhbət zamanı Milli Məclisin Sədri qonağa Azərbaycan və Ermənistan arasında normallaşma prosesi, Azərbaycanın müstəqillik və parlamentarizm tarixi, parlamentin strukturu və fəaliyyəti barədə ətraflı məlumat verib.

Milli Məclisdə olmaqdan məmnunluğunu bildirən Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşü və apardığı müzakirələr barədə təəssüratlarını bölüşüb. O, Azərbaycanı həm Latviya, həm də Avropa İttifaqı üçün dəyərli strateji tərəfdaş ölkə hesab etdiklərini diqqətə çatdırıb. Qonaq Azərbaycanla Ermənistan arasında sülh prosesində əldə olunmuş nailiyyətləri dəstəklədiklərini, real irəliləyişin əldə olunmasından məmnun olduqlarını bildirib. Latviyanın dövlət başçısı Prezident İlham Əliyevin sülh prosesindəki böyük səylərini qeyd edib və bildirib ki, sizin də bu sülh prosesi barədə parlament olaraq münasibətinizi öyrənmək məmnunluq doğurur.

Azərbaycana bu səfəri zamanı müzakirə olunmuş məsələlərin və imzalanmış sənədlərin əhəmiyyətindən danışan Latviyanın dövlət başçısı tezliklə bu sənədlərin və əldə edilmiş razılaşmaların öz bəhrəsini verəcəyinə əminliyini ifadə edib. Latviya Prezidenti parlamentlərarası əlaqələrin mühümlüyünü vurğulayaraq, bu baxımdan parlament üzvləri, parlamentlərarası əlaqələr üzrə işçi qrupları arasında mütəmadi səfərlərin və təcrübə mübadiləsinin əhəmiyyətindən danışıb. O, iki ölkə arasında iqtisadi, təhsil, investisiya, informasiya texnologiyaları, kənd təsərrüfatı, turizm və digər sahələrdə münasibətlərin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Latviya Prezidenti Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib

**Azərbaycanda rəsmi səfərdə olan Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs aprelin 22-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**



AZƏRTAC xəbər verir ki, daha sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Həmçinin görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin və istedadlı həkim Tamerlan Əliyevin məzarları ziyarət olunub və məzarların önünə gül dəstələri qoyulub.

## Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycanda rəsmi səfərdə olan Latviya Prezidenti Edqars Rinkeviçs aprelin 22-də Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, ali qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramını bildirib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Daha sonra Azərbaycan paytaxtının mənzərəsini seyr edən Latviya Prezidentinə Şəhidlər xiyabanının tarixi, bu məkanın xalqımızın yaddaşında tutduğu xüsusi yer və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

## Latviya Prezidenti "Bakı Ağ Şəhər"də olub

**Azərbaycanda rəsmi səfərdə olan Latviya Prezidenti Edqars Rinkeviçs aprelin 22-də "Bakı Ağ Şəhər"də olub.**

AZƏRTAC xəbər verir ki, "Bakı Ağ Şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıxov Latviya Prezidentinə burada icra olunmuş və hazırda həyata keçirilən işlər barədə məlumat verib.

Bildirilib ki, ərazi 150 ildən çox müddətdə neft sənayesi tullantıları ilə həddindən artıq çirkləndiyi və burada çoxsaylı neft gölməçələri yarandığı üçün bir vaxtlar "Qaraşəhər" kimi tanınırdı. Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu ərazi dünya miqyasında nadir ekoloji layihəyə, müasir yaşayış massivinə çevrilib.

"Bakı Ağ Şəhər" layihəsi dünyada müasir şəhərsalma konsepsiyasının ən parlaq nümunələrindən biridir. Layihənin icrasına Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2011-ci il dekabrın 24-də başlanılıb. Layihə ekoloji cəhətdən təmiz, dayanıqlı və "ağıllı şəhər" prinsipləri əsasında işlənib hazırlanıb.





## Azərbaycan-Latviya biznes-forumu çərçivəsində bir sıra sənədlər imzalanıb







**Azərbaycan-Latviya biznes-forumu çərçivəsində AZPROMO ilə Latviya Ticarət və Sənaye Palatası, "Caspian Energy Club International" MMC ilə "Power House Latvia" LCC arasında Anlaşma memorandumları imzalanıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov Bakıda keçirilən Azərbaycan-Latviya biznes-forumunda çıxışı zamanı Azərbaycanla Latviya arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 9-cu iclasının aprelin 15-də Şuşa şəhərində keçirildiyini xatırladıb, bu iclasda ticarət, kənd təsərrüfatı, mədəniyyət, turizm, təhsil və digər sahələrdə gələcək əməkdaşlıq üçün prioritet istiqamətlərin müəyyən edildiyini vurğulayıb. Nazir Məcnun Məmmədov qeyd edib ki, hər iki ölkədə əlverişli biznes mühiti və investisiya imkanları əlaqələrin genişləndirilməsi, yeni biznes əlaqələrinin qurulması baxımından mühüm əhəmiyyət daşıyır.

Nazir əlavə edib ki, mütəmadi biznes-forumların təşkili, rəqabətədavamlı ixrac məhsulları haqqında məlumat mübadiləsinin gücləndirilməsi və beynəlxalq sərgilərdə fəal iştirak hər iki ölkənin sahibkarları arasında əlaqələrin gücləndirilməsində əsas rol oynayacaq.

Məcnun Məmmədov aqrar texnologiyalar, ərzaq təhlükəsizliyi və məhsul ixracı sahələrində təcrübə mübadiləsinin vacibliyini diqqətə çatdırıb, bu sektorda tərəfdaşlığın hər iki ölkə üçün qarşılıqlı fayda verəcəyini bildirib.

Latviyanın kənd təsərrüfatı naziri Armands Krauze öz növbəsində iki ölkə arasında münasibətlərin əhəmiyyətinə toxunub. O, biznes-forumların işgüzar dairələr arasında əlaqələrin qurulması baxımından mühüm platforma olduğunu, bu cür tədbirlərin yeni investisiya imkanlarının yaradılmasına şərait yaratdığını, ticarət dövriyyəsinin genişlənməsinə və davamlı iqtisadi əməkdaşlığa töhfə verdiyini vurğulayıb.

Azərbaycan-Latviya biznes-forumu çərçivəsində İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO və Latviya Ticarət və Sənaye Palatası (LCCI) arasında Anlaşma Memorandumu imzalanıb.

"Caspian Energy Club International" MMC ilə "Power House Latvia" LCC arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Tədbirdə Azərbaycan və Latviyanın investisiya imkanlarına həsr edilmiş təqdimatlar keçirilib, hər iki ölkənin iqtisadi prioritetləri və xarici investorlar üçün yaradılmış imkanlardan bəhs olunub.

Biznes-forum çərçivəsində iş adamları arasında ikitərəfli görüşlər təşkil olunub, işgüzar əlaqələrin genişləndirilməsi imkanları müzakirə edilib.

# Baş nazir Əli Əsədov Astanada Regional Ekoloji Sammitdə iştirak edib










**Aprelin 22-də Astanada Qazaxıstan Respublikası Prezidentinin təşəbbüsü ilə keçirilən 2026-cı il Regional Ekoloji Sammiti (RES-2026) işinə başlayıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sammitdə iştirak edib.

Əvvəlcə iştirakçılar 2026-cı il Regional Ekoloji Sammitin sərgi pavilyonları, o cümlədən Azərbaycan pavilyonu ilə tanış olublar.

Sammitin plenar iclasında çıxış edən Ə.Əsədov vurğulayıb ki, Azərbaycan ətraf mühitin mühafizəsinə və iqlim dəyişikliyinə qarşı tədbirlərə böyük əhəmiyyət verir, onları milli və beynəlxalq davamlı inkişaf gündəliyinin ayrılmaz hissəsi kimi qiymətləndirir.

Baş nazir qeyd edib: "Bu kontekstdə Bakıda BMT-nin iqlim Konfransı - COP29-un keçirilməsi qlobal iqlim gündəliyində duran əsas məsələlər üzrə beynəlxalq səylərin konsolidasiyasına ölkəmizin çox vacib töhfəsi oldu".

Çıxışda su təhlükəsizliyi məsələlərinə xüsusi diqqət yetirilib. Vurğulanıb ki, iqlim dəyişikliyinin, şirin su çatışmazlığının artmasının və su ehtiyatlarına olan təzyiqin güclənməsi fonunda artan qlobal çağırışlar şəraitində su təhlükəsizliyi məsələləri beynəlxalq gündəlikdə prioritet əhəmiyyət kəsb edir.

Bu kontekstdə Azərbaycan Respublikasının BMT-nin himayəsi altında ixtisaslaşmış beynəlxalq su təşkilatının təsis edilməsinə dair Qazaxıstan Respublikasının təşəbbüsünə dəstəyi ifadə olunub.

Xəzər dənizində ekoloji vəziyyətlə bağlı problemlərə toxunan Baş nazir vurğulayıb ki, ən kəskin çağırışlardan biri Xəzər dənizinin səviyyəsinin sürətlə azalmasıdır.

O, Azərbaycanın regional qarşılıqlı fəaliyyətə sadiqliyini təsdiqləyərək qeyd edib ki, ölkə bu çağırışa qarşı səmərəli qarşılıqlı fəaliyyət göstərilməsi üçün Xəzəryanı dövlətlər arasında əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində ardıcıl səylər göstərir.

Bu məsələ ilə bağlı qeyd olunub ki, Xəzərin səviyyəsinin azalması səbəblərini öyrənmək və müvafiq profilaktik tədbirlər görmək məqsədilə Azərbaycanın təşəbbüsü əsasında Qazaxıstan, Rusiya və Türkmənistan ilə ikitərəfli işçi qrupları yaradılıb.

Ətraf mühitin deqradasiyasına ciddi təsir göstərən iqlim faktorlarını plenar iclasın iştirakçılarının diqqətinə çatdıran Əli Əsədov bu çağırışlara cavab verilməsi üzrə Azərbaycanda görülən ardıcıl tədbirlərdən danışıb: "Biz bərpa olunan enerji mənbələrini fəal şəkildə inkişaf etdirərək, "yaşıl energetika"ya keçidə üstünlük veririk. Hidroenerji sahəsində layihələrin fəal şəkildə həyata keçirildiyi azad olunmuş ərazilərdə "yaşıl energetika" zonalarının yaradılmasına xüsusi diqqət yetirilir".

Baş nazir qeyd edib ki, COP29-un uğurla keçirilməsi təcrübəsinə əsaslanan Azərbaycan UN-Habitat ilə əməkdaşlıq şəraitində bu ilin may ayında təşkil ediləcək 13-cü Ümumdünya Şəhərsalma Forumuna evsahibliyi etməyə hazırlaşır.

Plenar iclasın iştirakçılarına Azərbaycanın iyun ayında evsahibliyi edəcəyi daha bir mühüm tədbirə - 2026-cı il Ümumdünya Ətraf Mühit Gününə hazırlıq barədə də məlumat verilib.

Baş nazir vurğulayıb ki, Azərbaycan qlobal davamlı inkişaf gündəliyini irəli aparmaq və şəhərsalma və ekologiya sahəsində beynəlxalq səyləri birləşdirmək üçün bu platformalardan istifadə etmək niyyətindədir.

Çıxışına yekun vuran Ə.Əsədov qeyd edib ki, Azərbaycan beynəlxalq əməkdaşlıq prinsiplərinə sadiq qalır və ortaq məqsədlərə nail olunmasına fəal şəkildə töhfə verməyə hazırdır.

# YAP İdarə Heyətinin iclası keçirilib






**Aprelin 22-də Yeni Azərbaycan Partiyasının (YAP) idarə heyətinin növbəti iclası keçirilib. İclasda Azərbaycan Respublikası Seçki Məcəlləsinin 24-cü maddəsinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının (MSK) üzvü seçilmək üçün Yeni Azərbaycan Partiyasının namizədlərinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməsi məsələsinə baxılıb.**

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov YAP-ı MSK-da təmsil edəcək namizədləri idarə heyətinin müzakirəsinə təqdim edib. Pənahov Məzahir Məhəmməd oğlu, Qasımov Rövzət Afət oğlu, İbrahimov Ramiz Hilal oğlu, Paşayev Hüseyn Məmməd oğlu, Məmmədov Elmar Eldar oğlu və Abdullayeva Sevinc Qurban qızının Mərkəzi Seçki Komissiyasının əsas, Mustafayeva Elnarə Eyyub qızının isə əvəzedici üzvü seçilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verilməsi barədə qərar qəbul edilib.

İclasa yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov irəli sürülmüş namizədlərin göstərilən etimadı doğruldacağına əminliyini ifadə edərək onlara uğurlar arzulayıb.

*"Azərbaycan"*

# "Maliyyə icarəsi haqqında" yeni qanun layihəsi müzakirəyə çıxarıldı



**Aprelin 22-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Azər Əmiraslanov bildirib ki, gündəliyə 4 məsələ daxil edilib, ilk iki məsələ isə bir-biri ilə bağlıdır.**

Gündəliyin birinci məsələsi olan "Maliyyə icarəsi haqqında" qanun layihəsini (birinci oxunuş) müzakirəyə təqdim edən Azər Əmiraslanov sənədin aktuallığını vurğulayıb, onun iqtisadi inkişaf və sahibkarlar üçün maliyyələşmə mexanizmlərinin genişləndirilməsi baxımından əhəmiyyətindən danışıb. Komitə sədri diqqətə çatdırıb ki, gündəliyin ikinci məsələsi olan Mülki Məcəllədə, Vergi Məcəlləsində, Rəqabət Məcəlləsində, "Müflisləşmə və iflas haqqında", "Taxıl haqqında" , "Beynəlxalq xüsusi hüquq haqqında", "Tütün və tütün məmulatı haqqında", "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Çayçılıq haqqında", "Ailə kəndli təsərrüfatı haqqında", "Atçılıq haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Pambıqçılıq haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Elm haqqında", "Kredit büroları haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) də "Maliyyə icarəsi haqqında" yeni qanun layihəsindən irəli gələrək hazırlanıb.

İclasda "Maliyyə icarəsi haqqında" yeni qanun layihəsi barədə ətraflı məlumatı Mərkəzi Bankın idarə heyətinin sədrinin müavini Toğrul Əliyev təqdim edib. O, slaydlarla müşayiət olunan təqdimatında yeni qanun layihəsinin hazırlanması zərurətindən, əsas götürülmüş qabaqcıl beynəlxalq təcrübələrdən bəhs edib. Onun sözlərinə görə, maliyyə icarəsi (lizinq) ilə bağlı hazırkı vəziyyət və qanunvericilik bazası müasir iqtisadi münasibətlərə və bazarın inkişaf tələblərinə cavab vermir. Yeni layihə isə maliyyə icarəsi fəaliyyətinin daha çevik və şəffaf qaydalar əsasında təşkilinə imkan yaradacaq.

Toğrul Əliyev qanun layihəsində maliyyə icarəsinin anlayışı, maliyyə icarəsi fəaliyyətinə dair tələblər, iştirakçı tərəflərin hüquq və öhdəlikləri, icarə (lizinq) müqavilələrinin bağlanması, qeydiyyatı, icrası və vaxtından əvvəl xitamı, bu fəaliyyətə nəzarətlə bağlı müddəalar, maliyyə icarəsində əmlak münasibətləri və digər tənzimləmələr haqqında ətraflı danışıb.

Layihələrin müzakirəsində deputatlar Rövşən Muradov, Əli Məsimli, Məşhur Məmmədov, Əlibala Məhərrəmzadə, Aydın Hüseynov çıxış ediblər, təklif olunan dəyişikliklərlə bağlı fikirlərini, bəzi qeyd və təkliflərini bildiriblər.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Mərkəzi Bankın sədr müavini Toğrul Əliyev, Mərkəzi Bankın baş direktoru Tural Feyzullayev deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər, suallarını cavablandırıblar.

Sonra hər iki qanun layihəsi Milli Məclisin plenar iclasında birinci oxunuşda baxılmaq üçün tövsiyə olunub.

İclasda Vergi Məcəlləsində, "Təhsil haqqında" və "Minatəmizləmə fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda müzakirə olunub.

Gündəliyin sonuncu məsələsi olan "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun on üçüncü sessiyası ilə əlaqədar təşkilati və maliyyə məsələləri barədə əlavə Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi isə ölkəmizin sözügedən beynəlxalq tədbirə evsahibliyinin təminatı məsələlərini tənzimləyir.

Bu qanun layihələri də Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

*"Azərbaycan"*

# Mikroneziya və Marşal Adalarının nümayəndələri Bakı Mərkəzi ilə əməkdaşlıq etmək məqsədilə müraciət ünvanlayıblar

**Aprelin 22-də Banqkok şəhərində BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) 82-ci sessiyası çərçivəsində Azərbaycanın Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə sülh və iqlim dayanıqlılığı mövzusunda yüksəksəviyyəli tədbir keçirilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, "Heç kəsi arxada qoymamaq" şüarı ilə Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) və UNESCAP Katibliyinin dəstəyi ilə keçirilən tədbirdə inkişaf etməkdə olan kiçik ada dövlətlərinin nazirləri, yüksəksəviyyəli dövlət nümayəndələri və beynəlxalq təşkilatların təmsilçiləri çıxış ediblər.

Tədbirdə əsas məruzəçi qismində çıxış edən XİN-in Xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə ölkəmiz tərəfindən kiçik ada dövlətlərinə xüsusi diqqət və qayğının göstərildiyini vurğulayıb.

Səfir Azərbaycanın liderliyi ilə COP29-da iqlim maliyyəsi sahəsində qəbul edilmiş tarixi qərarların, ilk növbədə məhz iqlim dəyişmələrinə həssas olan bu ölkələr üçün xüsusi əhəmiyyətini qeyd edib.

Ölkəmizin kiçik ada dövlətlərinə beynəlxalq texniki yardım, iqlim dayanıqlılığı və bacarıqların artırılması sahələrində dəstək göstərdiyini bildirən natiq bu səpkidə COP29 Azərbaycan sədrliyinin uğurlu təşəbbüslərindən biri olan Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzinin (Bakı Mərkəzi) cari ildə kiçik ada ölkələri ilə əməkdaşlıq planlarından danışıb.

Tədbirdə çıxış edən Tonqanın daxili işlər naziri, həmçinin Maldiv, Tuvalu, Marşal Adaları, Fici, Mikroneziya və Samoanın hökumət nümayəndələri ölkəmizin qlobal çağırışların həlli sahəsindəki liderliyini yüksək qiymətləndirib, eyni zamanda ölkələrinə göstərilən dəstək və diqqətə görə Azərbaycan rəhbərliyinə təşəkkürlərini ifadə ediblər.

Eyni zamanda qeyd edilib ki, COP29-un vacib təşəbbüslərindən olan Bakı Mərkəzi platforması çərçivəsində irəli sürülən və sülhə töhfə verən uğurlu iqlim təşəbbüsləri iqlim risklərinə həssas ölkələr üçün beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi və dayanıqlı maliyyələşmə mexanizmlərinin səfərbər olunması baxımından əhəmiyyətli imkanlar yaradır. Bu çərçivədə Mikroneziya və Marşal Adalarının nümayəndələri Bakı Mərkəzi ilə əməkdaşlıq etmək məqsədilə müraciət ünvanlayıblar.

Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyanın 82-ci sessiyası çərçivəsində Azərbaycan sədrliyinin ilk yüksəksəviyyəli dialoqu olan bu tədbirin əhəmiyyətini vurğulayan UNESCAP-in icraçı katibinin müavini Li Yanq və BMqT-nin nümayəndəsi çıxışlarında təmsil etdikləri təşkilatların Azərbaycanın liderliyi ilə kiçik ada dövlətlərinə iqlim dayanıqlılığı və davamlı inkişaf sahələrində həyata keçirilən konkret təşəbbüslərə dəstək ifadə ediblər.

# Suriyadan daha 5 Azərbaycan vətəndaşı ölkəmizə repatriasiya edilib

**Azərbaycan Hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində Prezident İlham Əliyevin 2023-cü il 28 oktyabr tarixli 2336 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları"nın müvafiq müddəalarına uyğun olaraq aprelin 21-də Suriya Ərəb Respublikasının münaqişə bölgəsindən 2 (iki) qadın və 3 (üç) uşaq olmaqla, ümumilikdə 5 (beş) nəfər Azərbaycan vətəndaşının Türkiyədən ölkəmizə repatriasiyası həyata keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, ilk növbədə repatriantların yeri, şəxsiyyəti və Azərbaycan vətəndaşlığına mənsubiyyəti müəyyən edilib və daha sonra Türkiyə ərazisinə keçidi təşkil olunub.

İraq və Suriyadan Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul olan müvafiq dövlət qurumlarının nümayəndələri Türkiyənin İstanbul şəhərinə ezam edilib, repatriantların ilkin tibbi və psixoloji müayinəsinin həyata keçirilməsi təmin olunub.

Azərbaycanın Türkiyədəki səfirliyi və İstanbuldakı baş konsulluğu tərəfindən müvafiq əlaqələndirmə işi aparılmaqla vətəndaşlarımız Azərbaycana qayıdış şəhadətnamələri və uçuş biletləri ilə təmin edilib. Repatriantların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

"Xarici ölkələrin ərazisində silahlı münaqişənin qurbanına çevrilmiş Azərbaycan vətəndaşlarının repatriasiyası üçün zəruri tədbirlərin görülməsi davam etdiriləcək", - deyə XİN-in məlumatında bildirilib.

**Azərbaycan və Latviya arasında ikitərəfli münasibətlər qarşılıqlı strateji maraqlar üzərində qurulmuş tərəfdaşlıq modelidir. Müstəqilliyin bərpasından ötən dövr ərzində formalaşmış diplomatik münasibətlər hər iki ölkəni Avrasiya məkanının mühüm nəqliyyat-logistika və enerji qovşaqlarının əsas iştirakçılarına çevirib. Bakı və Riqanın iqtisadi potensialının və tranzit imkanlarının sintezi Xəzər və Baltik regionları arasında həlledici əməkdaşlıq platformasının yaranmasını şərtləndirib.**



# Bakı və Riqa tərəfdaşlığı yeni mərhələyə yüksəlir

## Azərbaycan-Latviya əməkdaşlığı qarşılıqlı etimada və strateji maraqlara söykənir

Hazırda Azərbaycan və Latviya arasında siyasi dialoq yüksək səviyyədə irəliləyir. Latviya Prezidenti Edqars Rinkeviçsin aprelin 22-də Azərbaycana rəsmi səfəri çoxşaxəli münasibətlərimizin inkişafında yeni dövrün əsasının qoyulması kimi dəyərləndirilir. Səfər çərçivəsində Latviyanın dövlət başçısı ilə Azərbaycan Prezidenti İlham Əliyev arasında təkbətək və geniştərkibli görüşlər keçirilib. Dövlətimizin başçısı iki ölkə arasında çox yaxşı siyasi əlaqələrin mövcud olduğunu deyib: "Bu gün onlar bir daha təsdiqləndi. Ticarəti və qarşılıqlı sərmayələri artırmaq, energetika, daşımalar, rəqəmsallaşma və burada Azərbaycanda fəal şəkildə təşviq etdiyimiz bütün sahələrə aid olan məsələləri həll etmək məqsədilə əməkdaşlığımıza dair praktiki məsələləri nəzərdən keçirməliyik".

Edqars Rinkeviçs də vurğulayıb ki, Latviya Azərbaycanı strateji tərəfdaş və dost hesab edir. İki ölkə arasında mühüm əməkdaşlıq sənədləri imzalanıb.

Görüşlərdən sonra liderlər mətbuata bəyanatla çıxış ediblər. Prezident İlham Əliyev Latviyanın dövlət başçısının Azərbaycana rəsmi səfərinin ikitərəfli imkanlar üçün yaxşı fürsətlər yaradacağını deyib: "Əminəm ki, Latviya Prezidentinin bu səfəri ikitərəfli imkanlar üçün yaxşı fürsətlər yaradacaq". Dövlətimizin başçısı latviyalı həmkarı ilə təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə ikitərəfli gündəliyin müxtəlif aspektlərini müzakirə etdiklərini, eyni zamanda beynəlxalq məsələləri nəzərdən keçirdiklərini vurğulayıb.

Ölkəsinin Azərbaycanla strateji tərəfdaş olduğunu qeyd edən Latviya Prezidenti Edqars Rinkeviçs görüşlərdə regional proseslərin ətraflı müzakirə edildiyini söyləyib: "Azərbaycanın Trans-Xəzər nəqliyyat dəhlizi və enerji dəhlizində rolunu xüsusilə qeyd etmək istərdik. Bu, həm Latviya, həm də Avropa İttifaqı üçün əhəmiyyətli məsələdir".

Azərbaycan və Latviya arasında 30 ildən çox davam edən əlaqələr qarşılıqlı hörmət, etimad və tərəfdaşlığa əsaslanır. Bu mənada Latviya Prezidentinin Bakıya səfəri iki ölkə arasında iqtisadi, texnoloji və humanitar sahələrdə yeni prioritetlərin müəyyənləşməsi baxımından tarixi əhəmiyyət kəsb edir. Latviyanın Azərbaycanın regional sülh və əməkdaşlıq təşəbbüslərinə verdiyi dəstək rəsmi Riqanın regionumuzda sabitliyin tərəfdarı olduğunu bir daha nümayiş etdirir.

İki ölkə arasında əməkdaşlıq siyasi, iqtisadi və humanitar sahələri əhatə edir. Hələ sovet dönəmində müttəfiq respublikalar qismində tərəflər arasında kənd təsərrüfatı əlaqələrinin bünövrəsi qoyulub. Dövlət müstəqilliyinin bərpasından sonra qurulan diplomatik təmaslar əməkdaşlığı keyfiyyətcə yeni müstəviyə daşıyıb. Latviya Azərbaycanın müstəqilliyini 1992-ci ildə tanıyıb. İki ölkə arasında diplomatik münasibətlərin təməli 1994-cü ildə qoyulub.

Ümummilli Lider Heydər Əliyevin Latviya ilə münasibətlərin strateji tərəfdaşlıq müstəvisinə yüksəlməsində müstəsna xidmətləri olub. Ulu Öndərin 1997-ci ildə NATO-nun Madrid sammiti çərçivəsində Latviyanın dövlət başçısı ilə keçirdiyi görüş gələcək inkişafın fundamental əsaslarını qoyub. Sonrakı dövrlərdə Riqadan yüksək rəsmilərin Bakıya səfərləri ölkələrimizi bir-birinə daha da yaxınlaşdırıb. 2000-ci illərdən etibarən yeni dinamika qazanan Azərbaycan-Latviya əlaqələri Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində yüksək səviyyəyə qalxıb. Dövlətimizin başçısının 2017-ci ildə Latviyaya rəsmi səfəri ikitərəfli əlaqələri daha da möhkəmləndirib.

Latviya beynəlxalq arenalarda Azərbaycanın ərazi bütövlüyünü hər zaman qətiyyətlə dəstəkləyib. Hazırda Azərbaycanla Ermənistan arasında davam edən sülh prosesində bu ölkə konstruktiv səylərini davam etdirir. Riqanın Bakıya yönəlik kursu daim sabit qalıb və əlaqələrin səmimiyyəti ilbəil artıb.

Bu günədək Azərbaycan və Latviya arasında 50-yə yaxın sənəd imzalanıb. Hazırda 47 Latviya şirkəti Azərbaycanda tikinti, xidmət, sənaye, rabitə, nəqliyyat, ticarət, bank və sığorta sahəsində fəaliyyət göstərir. İqtisadçıların qənaətincə, mövcud əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial mövcuddur. Xüsusən, ölkəmizdə etibarlı və əlverişli biznes mühitinin formalaşması latviyalı sahibkarları Azərbaycana investisiya yatırmağa, eləcə də respublikamızın nəqliyyat və logistika imkanlarından səmərəli istifadə etməyə sövq edir.

Latviya meşə təsərrüfatı və aqrar emal sahəsindəki qabaqcıl texnologiyalarını Azərbaycana transfer etməkdə maraqlıdır. Eyni zamanda Azərbaycanın rəqəmsal transformasiya hədəfləri çərçivəsində Latviyanın "ağıllı şəhər" və elektron hökumət təcrübəsindən geniş istifadə olunur. Azərbaycan-Latviya əlaqələri iqtisadi əməkdaşlıqla məhdudlaşmır, həm də regional təhlükəsizlik və rəqəmsal gələcək üçün qurulmuş uzunmüddətli tərəfdaşlıq xarakteri daşıyır.

Bakıda keçirilən ali səviyyəli görüşlər və əldə olunmuş razılaşmalar ikitərəfli gündəliyin şaxələndirilməsi üçün yeni imkanlar yaradır. Trans-Xəzər marşrutundan rəqəmsal texnologiyalara qədər geniş spektri əhatə edən ikitərəfli əməkdaşlıq regionlararası inteqrasiyanın nümunəvi modelini formalaşdırır.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# İqtisadi əlaqələr məsafə tanımır

## Azərbaycanla Latviya arasında əməkdaşlıq ən müxtəlif sahələri əhatə edir

**Azərbaycan-Latviya əlaqələrinin getdikcə genişlənməsi iqtisadi əməkdaşlıqda da özünü göstərir. Doqquz il əvvəl iki ölkə arasında imzalanmış Strateji Tərəfdaşlığın Qurulmasina dair Birgə Bəyannamə ikitərəfli münasibətlərin dərinləşməsi üçün möhkəm baza rolunu oynadığı kimi, iqtisadi ticarət tərəfdaşlığının inkişafına da təkan verir.**

Keçən il və bu ilin əvvəlindən qarşılıqlı ticarət dövriyyəsinin həcminin artması da bunu təsdiqləyir. Eyni zamanda sözügedən istiqamətdə daha yüksək nəticələrə nail olmaq üçün imkan və perspektivlər böyükdür. Müvafiq qurumların nümayəndə heyətlərinin qarşılıqlı səfər və görüşləri də məhz bu məqsədi daşıyır. Elə bu yaxınlarda Şuşa şəhərində keçirilən Azərbaycanla Latviya arasında İqtisadi, Elmi-Texniki və Mədəni Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının 9-cu iclasını xatırlayaq.

Əvvəla qeyd edək ki, tədbirin məhz Şuşada keçirilməsi xüsusi əhəmiyyət daşıyırdı. Bu bir daha göstərdi ki, işğaldan azad edilmiş ərazilərimizdə geniş miqyas alan bərpa və quruculuq işlərində digər tərəfdaş ölkələr kimi, Latviyanın da təcrübələrindən istifadə edilə bilər. Təsadüfi deyil ki, həmin tədbirdə kənd təsərrüfatı naziri, Azərbaycan-Latviya İqtisadi, Elmi-Texniki və Mədəni Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri Məcnun Məmmədov ölkəmizdə etibarlı və əlverişli biznes mühitinin olduğunu xatırlatmış və latviyalı sahibkarları Azərbaycana investisiya yatırmağa, eləcə də respublikamızın nəqliyyat və logistika imkanlarından səmərəli istifadə etməyə çağırmışdır.



Latviyanın kənd təsərrüfatı naziri, Azərbaycan-Latviya İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri Armands Krauze də öz növbəsində ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi münasibətilə Azərbaycan tərəfini bir daha təbrik etmişdir. O, həmçinin iclasın bizim üçün xüsusi əhəmiyyət kəsb edən Şuşa şəhərində keçirilməsindən və özünün də burada olmağından məmnun qaldığını demişdir.

Ümumiyyətlə, Latviya daim Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini və bundan sonra da dəstəkləyəcəyini bəyan edir. Azərbaycanın mühüm iqtisadi tərəfdaş olduğunu bu ölkədə yaxşı bilirlər. Ona görə də Latviya Azərbaycanla bütün sahələr üzrə tərəfdaşlıq münasibətlərini inkişaf etdirməyə maraqlıdır.

Armands Krauzenin Azərbaycanın istehsal etdiyi məhsulların Avropa bazarına çıxışına kömək etməyə hazır olduqlarını diqqətə çatdırması da bundan qaynaqlanır. Şuşada komissiyanın latviyalı həmsədri işgüzar əlaqələrin gücləndirilməsi və birgə təşəbbüslərin dəstəklənməsi üçün effektiv platforma kimi Latviya-Azərbaycan Biznes Əməkdaşlıq Şurasının yaradılmasının vacib olduğunu da vurğulamışdır.

Ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması hədəflənir. Eləcə də investisiya, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, nəqliyyat, şəhərsalma, tikinti, turizm və digər sahələrdə ikitərəfli əməkdaşlığı daha da inkişaf etdirmək nəzərdə tutulur. Bu məsələlər birgə komissiyanın 9-cu iclasının yekunlarına dair təsdiqlənmiş protokolda da öz əksini tapmışdır. Sənəddə həmçinin ikitərəfli münasibətlərin hüquqi-normativ bazasının daha da təkmilləşdirilməsi niyyəti bildirilmişdir.

Komissiya öz fəaliyyətini davam etdirir. Belə ki, tərəflər 10-cu iclasın gələn il Riqada keçirilməsi barədə razılığa gəlmişlər. Bu isə o deməkdir ki, Azərbaycan-Latviya iqtisadi əməkdaşlığının davamlı olacağına hər iki tərəf maraqlıdır.

Qeyd edildiyi kimi, bu iqtisadi əməkdaşlığın inkişaf sahələri genişdir. Təsadüfi deyil ki, Latviyanın kənd təsərrüfatı naziri Azərbaycanda olarkən iqtisadiyyat naziri Mikayıl Cabbarovla da görüşmüşdür. Görüşdə Azərbaycanın Latviya ilə iqtisadi əlaqələrinin genişləndirilməsinə önəm verildiyi bir daha nəzərə çatdırılmışdır.

Ölkəmizdə bu əlaqələrin inkişafı üçün əlverişli fürsətlər yaradılıb. Müxtəlif istiqamətlərdə, o cümlədən birgə müəssisələrin yaradılmasında, tranzit daşımalarda, turizm və bir sıra digər sahələrdə işbirliyinin möhkəmləndirilməsi üçün geniş perspektivlər var. Məhz bu reallıqdan çıxış edərək hər iki tərəf istər ticarət, istərsə də investisiya, enerji, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə birgə fəaliyyətin genişləndirilməsi imkanlarını yüksək dəyərləndirirlər.

Şübhəsiz ki, Latviyanın Prezidenti Edqars Rinkeviçsin ölkəmizə səfəri, dövlətimizin başçısı İlham Əliyevlə görüşləri iqtisadi qurumların bir-biri ilə daha sıx əlaqə qurmasına yeni bir təkan verəcək. Bu da Azərbaycan-Latviya iqtisadi əməkdaşlığındakı hədəflərə doğru növbəti addımlar olacaq.

***Flora SADIQLI, "Azərbaycan"***

# Silahsız müharibə

**Müasir dövrdə müharibələr yalnız döyüş meydanlarında getmir. Müharibələr həm də informasiya cəbhəsində, sosial şəbəkələrdə gedir. Bu proses "informasiya müharibəsi" və ya "hibrid müharibə" adlandırılır. Məqsədli şəkildə yayılan yalan, təhrif olunmuş və manipulyativ məlumatlar "informasiya təxribatı"nın ideoloji silahlarıdır. Texnologiyanın sürətli inkişafı isə bu silahların təsir dairəsini genişləndirərək informasiyanı döyüş vasitəsinə çevirib. İndi heç bir fiziki güc tətbiq etmədən, sadəcə dezinformasiyalar vasitəsilə cəmiyyəti daxildən sarsıtmaq və dövlətə olan etimadı parçalamaq mümkündür.**



Ölkəmiz üçün "informasiya təxribatı" anlayışı tamamilə real təcrübəyə əsaslanır. Məlum olduğu kimi, Vətən müharibəsi zamanı informasiya məkanı ikinci döyüş meydanına çevrilmişdi. Döyüşlər getdiyi günlərdə sosial şəbəkələrdə və informasiya platformalarında yüzlərlə saxta məlumat yayılırdı. Belə bir şəraitdə Prezident İlham Əliyevin nüfuzlu xarici KİV-ə verdiyi müsahibələr informasiya cəbhəsində Azərbaycanın qələbəsini təmin etdi.

İnformasiya təxribatının əsas vasitələrindən biri sosial şəbəkələrdə yaradılan saxta hesablardır. Bu hesablar koordinasiyalı şəkildə eyni mesajları paylaşaraq süni ictimai rəy formalaşdırır. Bununla da real vəziyyətlə uyğun gəlməyən "kütləvi fikir" görüntüsü yaradılır. Bu texnologiyadan, xüsusilə, münaqişə dövrlərində daha aktiv istifadə olunur. Son illər süni intellekt alətlərinin inkişafı isə bu prosesi daha mürəkkəb və təhlükəli mərhələyə daşıyıb. İndi "botlar" sadəcə rəy yazmaqla kifayətlənmir, həm də real görünən profillər vasitəsilə hər kəsə öz marağına uyğun yalanlar çatdırır. Saxta səs və görüntülər həqiqəti yalandan ayırmağı, demək olar ki, imkansız edir. Bu, insanların düşüncə tərzini hədəf alan yüksəktexnologiyalı bir hücumdur.

Təxribatların başqa bir forması isə köhnə məlumatların yeni hadisə kimi təqdim edilməsidir. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı xarici mediada yayılan bəzi görüntülər fərqli videolar idi və onlar yeni hadisə kimi təqdim olunaraq ictimai rəyə təsir etməyə yönəldilmişdi. Bu cür manipulyasiyalar cəmiyyət daxilində panika yaratmaq və informasiya xaosu formalaşdırmaq məqsədi daşıyırdı.

Ümumiyyətlə, informasiya təxribatlarının əsas hədəfləri cəmiyyətdə ölkənin imicini zədələmək, insanlarda inamsızlıq yaratmaq, milli birliyi zəiflətmək və sairdir. Xüsusilə, emosional məzmunlu, sensasion başlıqlı xəbərlər bu baxımdan daha təhlükəlidir. İnsanlar yalan və saxta informasiyaları həqiqət kimi qəbul edir, nəticədə təxribatın qurbanına çevrilirlər.

Rəqəmsal dünyada təhlükəsizlik fərdi məsuliyyətdən başlayır. Hər hansı bir informasiyanı paylaşmazdan əvvəl onun mənbəyini yoxlamaq onu icra edən insanın üzərinə düşən mənəvi öhdəlikdir. Bu şəraitdə media savadlılığı məsələsi ön plana çıxır. Ümumiyyətlə, hər bir vətəndaş informasiya mənbələrini ayırd etməyi, xəbərin doğruluğunu yoxlamağı və manipulyasiyaları tanımağı bacarmalıdır. Dövlət qurumlarının operativ və şəffaf informasiya siyasəti də bu sahədə mühüm rol oynayır. Çünki informasiya boşluğu yarandıqda onu çox vaxt dezinformasiya doldurur. Təxribatçı qüvvələrin qarşısını almaq üçün informasiyanın operativliyi ilə yanaşı, onun dürüstlük dərəcəsi həm medianın, həm də dövlət kommunikasiyasının əsas prioriteti olmalıdır.

Mövzu ilə bağlı Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, informasiya təxribatı və sosial mediada dezinformasiya ilə mübarizə olduqca həssas və çoxşaxəli məsələdir. Onun sözlərinə görə, Azərbaycanda bu istiqamətdə ciddi işlər görülür. Zərərli məzmunun silinməsi, saxta hesabların məhdudlaşdırılması və şəffaflıq hesabatlarının təqdim edilməsi kimi proseslər müsbət nəticələr verməkdədir. Xüsusilə, koordinasiyalı dezinformasiya kampaniyalarının daha sürətli aşkarlanması bu tədbirlərin effektivliyini göstərir. Bununla belə, tam effektivlikdən danışmaq hələ ki, mümkün deyil.

Komitə sədri diqqətə çatdırıb ki, əsas problemlərdən biri texnologiyanın sürətlə inkişaf etməsinin doğurduğu nəticələrdir: "Deepfake" texnologiyaları, bot şəbəkələri və digər alətlər hüquqi tənzimləmələrdən daha sürətlə inkişaf edir. Bundan əlavə, dezinformasiya çox zaman transsərhəd xarakter daşıyır və müxtəlif ölkələrin qanunvericilik fərqləri bu mübarizəni çətinləşdirir. Bu baxımdan, milli səviyyədə hüquqi bazanın gücləndirilməsi ilə yanaşı, milli-mənəvi dəyərlərin qorunması da vacibdir. Eyni zamanda qanunların aydın, konkret və şəffaf olması, onların müstəqil məhkəmə nəzarəti ilə tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Əks halda, "dezinformasiya" anlayışından sui-istifadə riski yarana bilər".

Komitə sədri əlavə edib ki, effektiv model kompleks yanaşmadan ibarətdir: "Media savadlılığının artırılması, hüquqi çərçivənin təkmilləşdirilməsi və platformaların məsuliyyətinin gücləndirilməsi paralel şəkildə həyata keçirilməlidir. Cəmiyyət təhlükəli dezinformasiyanı, qanuni məhdudiyyətləri və fikir müxtəlifliyini dəqiq ayırmağı bacarmalıdır. Azərbaycanda bu istiqamətdə mübarizə bir sıra hüquqi aktlar əsasında aparılır. Bunlara "Kütləvi İnformasiya Vasitələri haqqında", "Media haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Telekommunikasiya haqqında" qanunlar, eləcə də Cinayət və İnzibati Xətalar məcəllələri daxildir. Həmçinin ölkəmizdə bununla bağlı tənzimləyici qurumlar da fəaliyyət göstərir. Bütün bunlar onu deməyə əsas verir ki, bu hüquqi baza dezinformasiyaya qarşı mübarizədə əsas çərçivəni formalaşdırır".

Bir həqiqət dəyişməz olaraq qalır. XXI əsrdə həqiqət uğrunda mübarizə də müharibənin bir formasıdır. Bu mübarizədə qalib gələn isə düzgün və dəqiq informasiya ilə silahlanan tərəf olur.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Qərəzli qətnamələr sülh prosesinə zərbə vurmaq məqsədi daşıyır

**Cənubi Qafqazda sülhün qurulması üçün real imkanların yarandığı, Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinin irəlilədiyi bir dövrdə bəzi Avropa dövlətlərinin atdığı addımlar bu prosesi dəstəkləmək əvəzinə, ona kölgə salır. Xüsusilə, Belçika və Niderland parlamentlərinin qəbul etdiyi qətnamələr bu baxımdan ciddi suallar doğurur.**



Milli Məclisin komitə sədri Şahin İsmayılov qəzetimizə açıqlamasında bildirib ki, birincisi, belə qətnamələr sülhə xidmət etmir, əksinə, onlar regionda yeni formalaşan etimad mühitini zədələyir: "Sülh prosesi emosiyalar üzərində deyil, qarşılıqlı hörmət və balanslı yanaşma üzərində qurulmalıdır. Xarici aktorların birtərəfli mövqeləri isə tərəflər arasında dialoqu çətinləşdirir, kompromis imkanlarını zəiflədir. Əgər doğrudan da məqsəd regionda sabitlik yaratmaqdırsa, onda bu cür siyasi addımlar ya yanlış hesablanıb, ya da şüurlu şəkildə prosesə təsir etmək yolu seçilib".

Deputat qeyd edib ki, ikinci mühüm məsələ - tarix və siyasi yaddaşdır. Bu gün insan hüquqları mövzusunda yüksək tonla çıxış edən bəzi ölkələrin öz keçmişlərinə nəzər salmaq kifayətdir ki, hər şey aydınlaşsın. Belçikanın Konqoda apardığı siyasət və ya Niderlandın müxtəlif regionlarda həyata keçirdiyi kolonial idarəçilik tarix kitablarında qara səhifələr kimi qalır. Bu faktlar heç də uzaq keçmişə aid deyil və onların nəticələri indi də hiss olunur. Belə bir tarixi fon üzərində başqalarına insan hüquqları dərsi keçmək, ən azı ciddi suallar doğurur. Bu, prinsipiallıqdan daha çox selektiv yanaşma təsiri bağışlayır. "Üçüncü aspekt - zamanlama məsələsidir. Ermənistan daxilində siyasi proseslərin aktiv olduğu, seçki ərəfəsinin yaxınlaşdığı bir dövrdə bu cür qətnamələrin qəbulu təsadüfi görünmür. Bu, daxili siyasi gündəmə dolayı təsir cəhdi kimi də qiymətləndirilə bilər. Xarici qüvvələrin belə həssas məqamda balanssız mövqe nümayiş etdirmələri nə regiona, nə də Avropanın öz maraqlarına xidmət edir. Çünki Avropanın strateji marağı sabit və proqnozlaşdırıla bilən qonşuluq mühiti ilə bağlı olmalıdır, yeni gərginlik ocaqları yaratmaq yox. Burada daha geniş bir məqama da toxunmaq lazımdır. Bu gün Avropa İttifaqı və onun aparıcı ölkələri özlərini qlobal dəyərlərin daşıyıcısı kimi təqdim edir. Lakin bu dəyərlərin tətbiqində ardıcıllıq və ədalət prinsipi pozulduqda, həmin dəyərlərin inandırıcılığı zəifləyir. Əgər beynəlxalq hüquq prinsipləri selektiv şəkildə tətbiq olunursa, bu, artıq hüquq deyil, siyasi alətə çevrilir. Bu isə beynəlxalq münasibətlər sistemində etimadı sarsıdır", - deyə komitə sədri əlavə edib.

Ş.İsmayılov deyib ki, Cənubi Qafqazda sülh üçün əsas məsuliyyət region ölkələrinin üzərinə düşür. Azərbaycan artıq postmünaqişə dövründə normallaşma üçün konkret təşəbbüslərlə çıxış edib: sərhədlərin delimitasiyası, kommunikasiyaların açılması, qarşılıqlı tanınma prinsipləri əsas götürülməlidir. Bu təşəbbüslər real sülh gündəliyinin əsasını təşkil edir. Xarici tərəfdaşlardan gözləntilər isə bu prosesi dəstəkləməkdir, onu siyasiləşdirmək deyil.

Deputat vurğulayıb ki, sülh prosesi həssasdır və məsuliyyətsiz bəyanat, birtərəfli qərar bu prosesi geri ata bilər. Əgər Belçika və Niderland həqiqətən də regionda sabitlik və təhlükəsizlik istəyirlərsə, onda onlar balanslı, obyektiv və konstruktiv mövqe nümayiş etdirməlidirlər. Əks halda, bu cür addımlar nə sülhə, nə də onların beynəlxalq nüfuzuna xidmət edəcək. Çünki sülh bəyanatlarla deyil, ədalətli yanaşma və qarşılıqlı hörmətlə qurulur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Bakı-Brüssel xəttində yeni dönəmin anonsu verildi

## Avropa İttifaqı Azərbaycanla yeni tərəfdaşlıq sazişi üzrə danışıqları bərpa etmək istəyir

**Avropa İttifaqı geosiyasi dəyişikliklər və enerji böhranları fonunda Cənubi Qafqaza baxışını yenidən formalaşdırır. Yeni strateji yanaşmada Azərbaycan etibarlı enerji qapısı və mühüm logistik qovşaq kimi Brüsselin maraq dairəsinin mərkəzində dayanır. Lüksemburqda keçirilən Avropa İttifaqı (Aİ) xarici işlər nazirlərinin görüşündən sonra Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasın Azərbaycanla bağlı verdiyi açıqlamada bu qurumla ölkəmiz arasında münasibətlərin dərin hüquqi və siyasi müstəvidə inkişaf etdiriləcəyinin rəsmi anonsu səsləndirildi.**



Bakı ilə əməkdaşlığın genişləndirilməsi perspektivlərinə toxunan Aİ rəsmisi Avropanın regiondakı gələcək təhlükəsizlik və tərəfdaşlıq arxitekturasının Azərbaycanın iştirakı olmadan qeyri-mümkün olduğunu bir daha təsdiqləyib. O bildirib ki, tərəflər arasında energetika və ticarət sahəsində əlaqələrin gücləndirilməsi prioritet məsələdir: "Azərbaycan Avropa İttifaqı ölkələri üçün çox etibarlı enerji tərəfdaşı olub və belə də qalır".

Kallas yaxın vaxtlarda Azərbaycanla yeni ikitərəfli saziş üzrə danışıqların bərpa olunacağını deyib: "Biz əlaqələrimizi dərinləşdirmək istəyirik və tezliklə əməkdaşlıq haqqında yeni ikitərəfli saziş üzrə danışıqları bərpa edəcəyik. Biz, həmçinin Azərbaycanla münasibətlər baxımından daha nələr edə biləcəyimizi müzakirə etdik. Energetika və ticarət kimi qarşılıqlı maraq doğuran məsələlər üzrə daha çox işləməli və əlaqələri gücləndirməliyik".

Son dönəmdə Azərbaycan və Avropa İttifaqı arasında münasibətlərin yeni və daha dinamik mərhələsi yaşanır. Kaya Kallasın Azərbaycanı strateji əhəmiyyətli və etibarlı enerji tərəfdaşı kimi xarakterizə etməsi rəsmi Bakının Avropanın enerji təhlükəsizliyindəki rolunun Brüssel tərəfindən yüksək qiymətləndirildiyini göstərir. Xüsusilə geosiyasi gərginliklərin artdığı bir dövrdə Azərbaycanın enerji resursları Aİ üçün alternativsizlik dərəcəsində önəm kəsb edir.

Kallasın vurğuladığı kimi, Azərbaycan-Aİ əməkdaşlığının onurğa sütununu energetika və ticarət təşkil edir. Lakin əlaqələrin dərinləşməsi sayəsində bərpaolunan enerji sahəsində də tərəfdaşlıq inkişaf edəcək, ticarət yolları şaxələnəcək. Bu bəyanat da Aİ-nin Cənubi Qafqazda ən böyük iqtisadi tərəfdaşı olan Azərbaycanla münasibətləri inkişaf etdirmək niyyətini təsdiqləyir.

Diqqətçəkən məqamlardan biri yeni ikitərəfli saziş üzrə danışıqların bərpa ediləcəyinin anonsudur. Kallasın açıqlaması Azərbaycan-Aİ münasibətlərində uzun müddətdir gözlənilən Strateji Tərəfdaşlıq haqqında yeni sazişin tamamlanması istiqamətində ciddi bir siyasi mesajdır. Yeni saziş iqtisadiyyatdan tutmuş texnoloji mübadiləyə qədər bir çox sahəni əhatə edəcək ki, bu da tərəflər arasında əlaqələrin daha geniş hüquqi və siyasi müstəviyə keçəcəyinə dəlalət edir.

Hazırda Azərbaycan və Avropa İttifaqı arasındakı əlaqələr 1996-cı ildə imzalanmış və 1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə tənzimlənir. Odur ki, otuz il əvvəl imzalanmış bu sənəd müasir geosiyasi reallıqları, iqtisadi miqyası və enerji əlaqələrini tam əks etdirmir. Yeni saziş bu boşluğu dolduracaq. Kallasın ali nümayəndə qismində bu mövzunu gündəmə gətirməsi Brüsselin Bakı ilə münasibətləri praqmatik və institusional səviyyəyə qaldırmaq istəyini büruzə verir.

Danışıqların bərpası o deməkdir ki, Aİ Azərbaycanla bərabərhüquqlu və strateji müttəfiqlik statusunu hüquqi sənədlə möhkəmləndirmək istəyir. Düzdür, tərəflər arasında bəzi siyasi fikir ayrılıqları var. Lakin Azərbaycan hər zaman öz maraqlarını qoruyur. Ələlxüsus, qitənin enerji təhlükəsizliyi faktoru Brüsseli Bakı ilə mövcud anlaşılmazlıqları aradan qaldırmağa sövq edir.

İşğaldan azad edilmiş ərazilərdə minatəmizləmə prosesinə beynəlxalq dəstəyin artırılması ilə bağlı Bakının çağırışına toxunan Kallas Aİ-nin bu istiqamətdə əlavə səylər göstərə biləcəyini istisna etməyib: "Biz dünyanın müxtəlif ölkələrinə kömək edirik. Buna görə də, əgər sorğu daxil olarsa, biz daha nələr edə biləcəyimizi nəzərdən keçirəcəyik. Lakin bu gün hələlik bu məsələ ilə bağlı qərar qəbul etməmişik". Azərbaycanın azad edilmiş ərazilərindəki minaların miqyası nəinki region, dünya üçün böyük humanitar çağırışdır. Çünki söhbət təxminən 1,5 milyon partlamamış sursatdan gedir. Kallasın bu məsələyə "yaşıl işıq" yandırması Aİ-nin problemi siyasi çərçivədən çıxararaq humanitar təhlükəsizlik müstəvisində nəzərdən keçirməyə meyilli olduğunu ortaya qoyur.

Həm də görünən odur ki, Aİ minaların təmizlənməsi məsələsində Bakı ilə koordinasiyalı şəkildə hərəkət etmək istəyir. Bu kontekstə Azərbaycanın minatəmizləmə agentliyi (ANAMA) ilə Aİ-nin müvafiq qurumları arasında daha sıx əməkdaşlıq platforması qurula bilər. Nəzərə alınmalıdır ki, işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi bu ərazilərə xarici investisiyaların cəlbi üçün ən böyük maneədir. Aİ-nin prosesdə iştirakı dolayısı ilə regionda sabitliyin bərpasına və iqtisadi canlanmaya dəstək kimi dəyərləndirilə bilər. Bu dəstəyin reallaşması Azərbaycanın Aİ ilə gələcək sazişində humanitar əməkdaşlıq bəndlərini daha da gücləndirər.

Kaya Kallas həmçinin Aİ-nin Cənubi Qafqaza strateji baxışını şərh edərək, regionun təhlükəsizliyində maraqlı olduqlarını qeyd edib. Onun sözlərinə görə, Ermənistan və Azərbaycan arasındakı sülh prosesində əldə olunan irəliləyiş region üçün real fürsətdir. Aİ bu istiqamətdə dəstəyini əhəmiyyətli dərəcədə artırır. Avropa İttifaqı Cənubi Qafqaza öz sərhədlərinin təhlükəsizliyinə birbaşa təsir edən strateji zona kimi baxır. Brüssel hesab edir ki, regionda davamlı sülhün bərqərar olması Orta dəhliz kimi qlobal layihələrin tam gücü ilə işləməsinə şərait yaradacaq. Bununla yanaşı, xarici investorların regiona, xüsusən, logistika və bərpaolunan enerji sahələrinə inamını artıracaq.

Aİ rəsmisi Ermənistan üçün yeni missiya yaratmaq barədə razılığa gəldiklərini də xatırladıb. Kallasın fikrincə, bu, ölkələrin kütləvi dezinformasiya kampaniyalarına və kiberhücumlara qarşı dayanıqlığını gücləndirəcək. Qeyd olunub ki, Aİ-nin Ermənistanda yaratmaq istədiyi yeni missiya əvvəlki monitorinq missiyalarından fərqli olaraq, daha çox kənar hibrid təhdidlər sahəsinə yönəlib. Kallasın açıqlamaları Aİ-nin Cənubi Qafqazda balansı qorumağa çalışdığını, Bakı və İrəvanla simmetrik yaxınlaşma strategiyasını ortaya qoyur.

Kallasın çıxışı dolayısı ilə mesaj verir ki, Aİ Cənubi Qafqazın proqnozlaşdırıla bilən təhlükəsiz regiona çevrilməsini istəyir. Azərbaycanın bu prosesdəki rolu isə Aİ üçün enerji və coğrafi baxımdan həlledicidir. Azərbaycanın etibarlı tərəfdaş statusu və Aİ-nin bu reallığı qəbul etməsi regionda uzunmüddətli sülh və iqtisadi tərəqqi üçün ən güclü stimuldur.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# "Şimali Kiprə dəstəyinə görə Prezident İlham Əliyevə minnətdarıq"

**Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) xarici işlər naziri Tahsin Ertuğruloğlu Azərbaycanın və şəxsən Prezident İlham Əliyevin Lefkoşaya verdiyi dəstəyi yüksək qiymətləndirib.**




AZƏRTAC xəbər verir ki, Antalya Diplomatiya Forumunun nəticələrini şərh edən Ertuğruloğlu Şimali Kipr xalqının hüquqlarını müdafiə etmək uğrunda mübarizədə ŞKTC hakimiyyətinin üzləşdiyi təzyiq və embarqolara diqqət çəkib.

"Hazırkı vəziyyətdə Antalya Diplomatiya Forumu kimi platformalar ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq ictimaiyyət Kiprin iki dövləti və iki xalqı olduğunu qəbul etməlidir", - deyə Şimali Kipr diplomatiyasının rəhbəri bildirib.

Nazir həmçinin Antalyadakı forum çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin bir daha ifadə edilən mövqeyini vurğulayıb. "Buna görə Prezident İlham Əliyevə səmimi-qəlbdən minnətdaram", - deyə o bildirib.

Qeyd etmək lazımdır ki, Azərbaycana ünvanlanan bu minnətdarlıq sözləri Şimali Kipr mediasında da öz əksini tapıb.

# Bakıda Çernobıl AES-də baş vermiş qəzanın 40-cı ildönümü qeyd olunub

**Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında "Azərbaycan Çernobıl Əlilləri İttifaqı" İctimai Birliyinin təşkilatçılığı ilə Çernobıl Atom Elektrik Stansiyasında (AES) baş vermiş qəzanın 40-cı ildönümü ilə əlaqədar tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, Dövlət Himninin səslləndirilməsi ilə başlayan tədbirdə qəzada həlak olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Çıxış edən "Azərbaycan Çernobıl Əlilləri İttifaqı" İctimai Birliyinin sədri Mirhəsən Həsənov bu faciənin tarixindən, Azərbaycan vətəndaşlarının həmin qəzanın nəticələrinin aradan qaldırılması ilə bağlı həyata keçirilən tədbirlərdə fəal iştirakından danışıb. Bildirib ki, Çernobıl faciəsinin nəticələri Azərbaycana da ciddi təsir göstərib. Bu faciədən sonra 2 mindən çox azərbaycanlı uşaq müxtəlif xəstəliklərlə dünyaya gəlib. Faciənin nəticələrinin aradan qaldırılması üçün 8500-dən artıq azərbaycanlı prosesə cəlb olunub.

O həmçinin deyib ki, dövlət başçısının müvafiq sərəncamına əsasən, 2021-ci ildən bu günə qədər Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar əlilliyi müəyyən edilmiş 450-dən çox şəxs evlə təmin olunub.

Tədbirdə çıxış edən digər natiqlər də vurğulayıblar ki, Azərbaycan dövləti tərəfindən Çernobıl qəzasının nəticələrinin aradan qaldırılmasında iştirak edənlərə, xüsusilə bu zaman əlil olmuş şəxslərə daim diqqət və qayğı göstərilir.

Qeyd edək ki, 1986-cı il aprelin 26-da Ukraynanın paytaxtı Kiyev şəhəri yaxınlığında yerləşən Çernobıl AES-in 4-cü enerji blokunda yanğın baş verib. "XX əsrin faciəsi" adlandırılan bu hadisə ən böyük texnogen fəlakət olub. Partlayış nəticəsində ətraf mühitə çoxlu miqdarda radioaktiv maddə yayılıb. Fəlakətin ilk günlərində partlayış, yanğın və kəskin şüalanmadan 50 nəfər ölüb. Hadisə nəticəsində ümumilikdə 7 minə yaxın insan həyatını dəyişib, 25 min nəfər güclü radiasiya nəticəsində ömürlük şikəst olub, 10 minlərlə insan isə sonsuz qalıb. Faciənin ilk dövrlərində - 1986-1987-ci illərdə Çernobıl AES-də baş vermiş qəzanın nəticələrinin aradan qaldırılmasına 7 mindən çox Azərbaycan vətəndaşı cəlb olunub. Faciədən ötən müddət ərzində 2500-dək insan səhhətində yaranan problemlər səbəbindən dünyasını dəyişib. Sağ qalanlar isə xilasetmə işləri zamanı aldıqları şüalanmadan əziyyət çəkirlər.

# Gənclər gələcəyin gücü kimi:

## *Özbəkistan ilə Azərbaycan arasında əməkdaşlığın yeni üfüqləri*

**Möhkəm dostluq münasibətləri və ortaq strateji məqsədlərlə bağlı olan Özbəkistan və Azərbaycan təhsil, texnologiyalar və gənclər təşəbbüsləri sahəsində əməkdaşlığı ardıcıl şəkildə genişləndirir. Bu kontekstdə gənclər platformalarının, təhsil layihələrinin və rəqəmsal təşəbbüslərin ölkələr arasında regional əməkdaşlığı necə gücləndirə və yeni liderlər nəslinin formalaşmasına necə töhfə verə biləcəyi məsələsi xüsusi aktuallıq kəsb edir.**



Gənclər diplomatiyası, rəqəmsal transformasiya və birgə regional təşəbbüslərin perspektivləri barədə gənclərin inkişafı və beynəlxalq təhsil proqramları üzrə özbək eksperti Jasurbek Kaynarbekovla söhbət etdik.

*- Azərbaycan gənclərin inkişafı, təhsil və innovasiya sahələrinə fəal şəkildə sərmayə qoyur. Azərbaycan gənclər təşkilatları ilə əməkdaşlıq potensialını necə qiymətləndirirsiniz?*

- Özbəkistan ilə Azərbaycan arasında təhsil, gənclərin inkişafı və texnologiyalar da daxil olmaqla bir çox sahələrdə güclü və inkişaf edən dostluq münasibətləri mövcuddur. Son illərdə Prezident Şavkat Mirziyoyev Azərbaycan hökuməti ilə əməkdaşlığı fəal şəkildə gücləndirərək yeni imkanlar yaradıb. Hesab edirəm ki, təhsil, gənclərin inkişafı və innovasiyalar sahəsində unikal regional ekosistem formalaşdırmaq üçün böyük potensialımız var.

Bu əməkdaşlığın uğurlu olmasını şərtləndirən üç əsas amil var. Birincisi, hər iki ölkədə iqtisadiyyatın, təhsil sisteminin və sosial siyasətin modernləşdirilməsinə yönəlmiş genişmiqyaslı islahatlar həyata keçirilir. Oxşar inkişaf istiqamətləri təcrübə mübadiləsi və uğurlu təşəbbüslərin inteqrasiyası üçün əlverişli zəmin yaradır. İkincisi, hər iki ölkə yüksək potensiala, kreativliyə və motivasiyaya malik gənc nəslə sahibdir. Düzgün imkanlar və platformalar olduqda, bu gənclər həm milli, həm də regional inkişafa ciddi töhfə verə bilərlər. Üçüncüsü, ölkələrimiz arasında mövcud olan güclü siyasi tərəfdaşlıq əməkdaşlığın daha da dərinləşdirilməsi üçün əlverişli şərait yaradır. Mədəni yaxınlıq və ortaq dəyərlər qarşılıqlı əlaqəni daha təbii və səmərəli edir.

*- Siz EYUFMUN platformasını inkişaf etdirirsiniz. Azərbaycan gənclərinin bu kimi formatlarda iştirakı beynəlxalq dialoqun gücləndirilməsinə töhfə verə bilərmi?*

- EYUFMUN dövlət siyasəti, idarəetmə və beynəlxalq əməkdaşlıq sahələrinə maraq göstərən gənc liderləri bir araya gətirən unikal platformadır. Məqsədimiz gənclərə liderlik potensialını inkişaf etdirmək, analitik düşüncəni gücləndirmək və qlobal çağırışları daha dərindən anlamaq üçün imkanlar yaratmaqdır.

Azərbaycanlı gənclərin bu platformada iştirakı mühiti daha da zənginləşdirə bilər. Müxtəlif ölkələrdən olan gənclər qlobal məsələləri müzakirə etdikdə, fikir mübadiləsi apardıqda və birgə həll yolları axtardıqda, yalnız peşəkar baxımdan deyil, həm də şəxsi və sosial baxımdan inkişaf edirlər. Bu cür platformalar gənclər diplomatiyasının gücləndirilməsi üçün effektiv vasitədir və gələcək diplomatlar, siyasətçilər və novatorlar arasında erkən mərhələdən əməkdaşlıq mədəniyyəti formalaşdırır.

*- Azərbaycan İT sektorunu və startap ekosistemini fəal şəkildə inkişaf etdirir. Sizcə, hansı birgə təşəbbüslər texnoloji əməkdaşlığı gücləndirə bilər?*

- Həm Azərbaycan, həm də Özbəkistan texnoloji inkişafın iqtisadiyyatın gələcəyində əsas rol oynadığını aydın şəkildə anlayır. Son illərdə hər iki ölkə İT təhsili, startap ekosistemləri və rəqəmsal infrastruktur sahəsinə ciddi investisiyalar yatırıb. Bu isə birgə təşəbbüslər üçün möhkəm baza yaradır.

Perspektiv istiqamətlərdən biri innovasiya və startap sahəsində birgə mübadilə proqramlarının yaradılmasıdır. Bu proqramlar çərçivəsində gənc sahibkarlar birgə texnoloji həllər üzərində işləyə və startaplarını inkişaf etdirə bilərlər. Eyni zamanda regional hakatonların, innovasiya müsabiqələrinin və texnoloji forumların təşkili də vacibdir. Bu platformalarda gənc proqramçılar və mühəndislər real problemlərin həllinə yönəlmiş layihələr üzərində birgə çalışa bilərlər.

Bundan əlavə, tələbə və tədqiqat mübadilə proqramları gənc mütəxəssislərə müxtəlif innovasiya ekosistemlərini öyrənmək və əldə etdikləri təcrübəni öz ölkələrinə gətirmək imkanı verəcək. Bu təşəbbüslər regionda yeni nəsil rəqəmsal liderlərin formalaşmasına təkan verə bilər.

*- Qloballaşma şəraitində gənclər beynəlxalq proseslərin mühüm iştirakçılarına çevrilir. Gənclər diplomatiyası ölkələr üçün yeni "yumşaq güc" alətinə çevrilə bilərmi?*

- Gənclər diplomatiyasının Azərbaycan və Özbəkistan kimi ölkələr üçün güclü "yumşaq güc" aləti ola biləcəyi ilə tam razıyam. Özbəkistanda əhalinin təxminən 60 faizi 30 yaşdan aşağıdır və bu göstərici artmaqdadır. Dövlət bu potensialı nəzərə alaraq gənclərin inkişafını prioritet istiqamət kimi müəyyənləşdirib.

Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə təhsilə çıxışın genişləndirilməsi və gənclər üçün yeni imkanların yaradılması istiqamətində genişmiqyaslı islahatlar həyata keçirilir. Gənclər artıq beynəlxalq təhsil proqramlarında, innovativ layihələrdə və mübadilə təşəbbüslərində daha fəal iştirak edirlər.

Təhsilə, beynəlxalq təcrübəyə və liderlik bacarıqlarının inkişafına qoyulan investisiyalar gəncləri yalnız peşəkar kimi deyil, həm də ölkələrinin qeyri-rəsmi səfirləri kimi formalaşdırır. Bu baxımdan gənclər diplomatiyası beynəlxalq əlaqələrin gücləndirilməsi, qarşılıqlı anlaşmanın artırılması və qlobal əməkdaşlığın inkişafı üçün mühüm alətə çevrilir. Məqsəd isə qlobal düşüncəyə malik, innovativ və açıq liderlər yetişdirməkdir.

# Vətənin bütövlük günü

**2023-cü ilin 23 aprel günü xalqımızın taleyinə tarixi dönüş nöqtəsi kimi yazıldı. Həmin gün Zəfər salnaməmizin haqq səsi kimi Həkəri çayının üzərində ucaldılan üçrəngli bayraq hər bir azərbaycanlının qəlbindəki "Vətən bütövləşdi" nidasının göylərdəki əks-sədası, dövlətçilik qürurumuzun əlçatmaz zirvəsi idi.**



## Laçın sərhəd nəzarət-buraxılış məntəqəsində Azərbaycan bayrağının dalğalandırılmasından 3 il ötür

Sərhədlərimiz artıq toxunulmaz oldu, Laçın yolu Azərbaycanın polad iradəsinin keçilməz qalasına çevrildi. Bununla onilliklər boyu davam edən erməni quldurlarının qanunsuz hərəkətlərinə, ərazilərimizə uzanan əllərə və separatizmin qalıqlarına ən sarsıdıcı zərbə vuruldu.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü qətiyyətli siyasətin, prinsipial mövqeyin sayəsində tarixi qələbəyə imza atdıq. Laçın-Xankəndi yolunun başlanğıcında, Həkəri çayı üzərində Azərbaycanın sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması ilə dövlətimiz öz suveren hüquqlarını bərpa etdiyini bütün dünya qarşısında bir daha təsdiqlədi.

"23 aprel hadisələri çox önəmli bir tarixdir. O vaxt və ondan sonra mən demişdim ki, 23 aprel tarixində bizim ərazi bütövlüyümüz tam bərpa edildi. Bütün sərhədlərə biz nəzarət etməyə başlamışdıq və bir daha göstərdik ki, bu torpaqların sahibləri bizik", - deyə qalib lider İlham Əliyev həmin gün atılan qətiyyətli addımın tarixi əhəmiyyətini və xalqımızın sarsılmaz mövqeyini birmənalı şəkildə dünyaya bəyan etmişdi.

### Milli hədəfə gedən yol

Azərbaycan 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsi ilə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin ərazilərimizi tərk etmələri ilə bağlı qəbul etdiyi 4 qətnaməsini öz gücü ilə icra etdi. Çünki onilliklər boyu aparılan danışıqlar heç bir səmərə vermirdi. Əksinə, iki ölkə arasında münaqişənin həlli dalana dirənmişdi. Vəziyyətin bu hala gəlməsində isə ATƏT-in keçmiş Minsk qrupunun xüsusi rolu olmuşdu. Yarıtmaz həmsədrlər, eləcə də dünya erməniliyinin rüşvətlə ələ aldığı digər qərəzli Qərb siyasətçiləri elə hesab edirdilər ki, münaqişəni olduğu kimi dondurmaqla Azərbaycanı işğal siyasəti ilə barışmağa məcbur edəcəklər. Eyni zamanda alternativ variant kimi müharibə versiyası da qətiyyən qəbul edilmirdi.

2020-ci il noyabrın 10-da İrəvanı təslimçilik aktına imza atmağa məcbur edən Bakı bununla həm torpaqlarının 30 illik işğalına son qoydu, həm də dünyada mövcud olan bu tip münaqişələrin necə həll olunması ilə bağlı unikal model təqdim etdi.

Vətən savaşının üzərindən ötən 3 illik müddət ərzində ölkəmiz milli maraqlarının təmini istiqamətində növbəti addımlarını atdı.

Böyük qələbədən sonra qarşıda duran mühüm vəzifələrdən biri sərhədlərimizə tam nəzarəti təmin etmək, Xankəndi-Laçın yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi yaratmaq idi.

Ermənistanın humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolundan hərbi təxribatlar, mina daşınması və təbii sərvətlərimizin talanması üçün istifadə etməsi Bakının səbir kasasını daşıran son damla oldu.

İrəvan üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozaraq Qarabağda fəaliyyət göstərən qanunsuz erməni hərbi birləşmələrini ərazilərimizdən çıxarmır, yalnız humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolundan hərbi təyinatlı yüklər daşıyaraq onları silahlandırırdı.

44 günlük müharibədən sonra 2021-ci il istehsalı olan minaların bu yolla gətirilərək Azərbaycan ərazilərində basdırılması kimi faktlar da mövcud idi.

Digər tərəfdən, separatçılar Qarabağda təbii sərvətlərimizi istismar edir, talayır və Laçın yolu ilə daşıyırdılar. Eyni zamanda həmin ərazilərdə ekoloji terror törədirdilər. Buna görə də 2022-ci ilin dekabrından 2023-cü ilin aprelinədək ekofəallarımız Laçın yolunda dinc etiraz aksiyası həyata keçirmişdilər. Bunun sayəsində Laçın yolundan Ermənistan tərəfindən hərbi təyinatlı yüklərin daşınmasına son qoyulmuşdu. Lakin İrəvan yenə də qanunsuz əməllərindən əl çəkməyərək Laçın yoluna paralel olan torpaq yollarla Qarabağa gizli şəkildə silah-sursat, canlı qüvvə daşımağa davam edirdi. Həmin vaxt separatçıların bu qanunsuz əməllərinə Azərbaycan Ordusunun bölmələrinin keçirdiyi uğurlu əməliyyatla son qoyulmuşdu.

### Ədalətin zəfəri

Beləliklə, 2023-cü il aprelin 23-də tarixi qərar verildi və Laçın-Xankəndi yolunun başlanğıcında, Həkəri çayının üzərində sərhəd nəzarət-buraxılış məntəqəsi yaradıldı.

Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması bəzi qərəzli Qərb dairələrini ciddi narahat etdi. Ancaq Bakıya qarşı yönəlmiş əsassız ittihamlar, "blokada" şousu və diplomatik təzyiqlər Azərbaycanın prinsipial mövqeyi qarşısında aciz qaldı.

2023-cü il iyulun 6-da Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin ləğvi ilə bağlı tələbini rədd edərək Azərbaycanın öz ərazisindəki suveren hüquqlarını tanıdı. Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə sözün əsl mənasında tarixin ədalət tərəzisi yenidən quruldu.

23 aprel həm də 2023-cü ilin 19-20 sentyabrında həyata keçirilən antiterror tədbirlərinə gedən yolun təməli oldu. Sərhədin bağlanması ilə separatçıların "nəfəsliyi" kəsildi, onların qanunsuz silahlanma imkanları sıfıra endirildi. Apreldə Həkəri çayı üzərində ucaldılan bayraq, sentyabrda Xankəndidə, Xocalıda, Ağdərədə dalğalanan üçrəngli bayrağımızın müjdəçisi oldu.

Bir sözlə, ərazi bütövlüyümüz təkcə döyüş meydanında deyil, həm də sərhədlərimizə nəzarətin tam ələ alınması ilə siyasi və hüquqi müstəvidə tamamlandı.

Azərbaycan 23 apreldə sərgilədiyi qəti mövqeyi ilə dünyaya göstərdi ki, onun torpağında ikinci bir dövlət və ya nəzarətsiz bir qarış yer ola bilməz.

Bu gün xalqımız başıdik, alnıaçıq və qürurludur.

Çünki Vətən artıq bütöv, sərhədlərimiz keçilməz, bayrağımız isə uca və əbədidir!

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Reallıq, yoxsa revanşizm

## Ermənistandakı seçkiöncəsi ideoloji savaş dərinləşir

**Ermənistanın Baş naziri Nikol Paşinyan seçki proqramını təqdim edib. Sənəddə Ermənistan və region üçün sülh dövrünün açılması əsas missiya kimi müəyyən edilib. Eyni zamanda Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olmasının yeni inkişaf mərhələsi yaratdığı və qarşıdan gələn seçkilərdə bu istiqamətin davam etdirilməsi əsas məqsəd kimi qiymətləndirilib. Seçki proqramının əsasını isə "Real Ermənistan" konsepsiyası, eləcə də ölkənin iqtisadi və institusional transformasiyası təşkil edir.**



Mövzu ilə əlaqədar qəzetimizə danışan Milli Məclisin deputatı Nigar Məmmədova bildirib ki, Nikol Paşinyan tərəfindən təqdim olunan yeni seçki proqramında yer alan "Real Ermənistan" konsepsiyası daha praqmatik təsir bağışlayır. Bu konsepsiyanın nə vəd etdiyi və hansı nəticələr doğura biləcəyi həm ölkə daxilində, həm də regionda ciddi müzakirə mövzusudur. "Paşinyan bildirib ki, Vətəndaş Müqaviləsi partiyası ən vacib missiyasını yerinə yetirib, Ermənistanla Azərbaycan arasında sülh bərqərar olub və ölkəsi dinc inkişaf dövrünə qədəm qoyub. Onun sözlərinə görə, əgər Qarabağ hərəkatı davam etdirilərsə, bu, Azərbaycanla münaqişənin yenilənməsi və sülhün mümkün olmadığı anlamına gələcək. Baş nazir inandırmağa çalışıb ki, "Real Ermənistan" ideyasının mərkəzində emosional və tarixi iddialardan daha çox mövcud reallıqların qəbul edilməsi dayanır. Bu, ilk növbədə, Ermənistanın təhlükəsizlik siyasətindəki dəyişiklikləri, qonşularla münasibətlərin normallaşdırılmasını və iqtisadi inkişaf kimi istiqamətləri əhatə edir. Paşinyan hökuməti açıq şəkildə bildirir ki, ölkənin gələcəyi uzunmüddətli münaqişələrdə deyil, sabitlik və inteqrasiyada axtarılmalıdır", - deyə deputat bildirib.

Nigar Məmmədova deyib ki, bu konsepsiyanın ən diqqətçəkən tərəfi regional münasibətlərə yanaşmadır. Xüsusilə İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni geosiyasi vəziyyət fonunda Ermənistanın daha realist siyasət yürütməsi zərurəti yaranmışdır. Bu kontekstdə Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılması prioritet kimi təqdim olunur. Bu isə revanşistlərin mövqeyi ilə ziddiyyət təşkil edir. Amma Paşinyan və komandası anlayır ki, kommunikasiyaların açılması Ermənistanı tranzit ölkəyə çevirə və iqtisadi artımı sürətləndirə bilər. Lakin bu yanaşmanın uğuru böyük ölçüdə siyasi sabitlik və qonşu ölkələrlə əldə olunacaq razılaşmalardan asılıdır.

N.Məmmədova vurğulayıb ki, bununla yanaşı, konsepsiya müəyyən riskləri də özündə ehtiva edir: "Ən böyük çətinlik daxili ictimai rəyin transformasiyasıdır. Uzun illər formalaşmış narrativlərin dəyişdirilməsi, təbii ki, asan proses deyil. Revanşist qüvvələr artıq bu siyasəti tənqid edərək onu "güzəştlər toplusu" kimi təqdim etməyə çalışırlar. Burada Paşinyandan ciddi qətiyyət gözlənilir. Belə ki, "Real Ermənistan" konsepsiyası uğur qazanarsa, ölkə üçün yeni inkişaf imkanları yarana bilər. Əks halda daxili siyasi böhran daha da dərinləşəcək".

Deputat yekunda qeyd edib ki, yeni konsepsiyanın taleyi yalnız seçki nəticələrindən deyil, həm də Ermənistan cəmiyyətinin yeni reallığı nə dərəcədə qəbul etməsindən asılı olacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Minatəmizləyənlərin ailə üzvlərinə dövlət qayğısı gücləndirilir

**Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyatın bərpası yalnız tikinti və infrastruktur layihələri ilə ölçülmür. Bu prosesin ən təhlükəli və eyni zamanda həyati əhəmiyyət daşıyan mərhələsi torpaqların mina və partlayıcı sursatlardan təmizlənməsidir. Bu missiyanı həyata keçirən ANAMA işçiləri - minatəmizləyənlər hər gün həyatlarını təhlükəyə ataraq insanların təhlükəsiz qayıdışını təmin edirlər. Onların fəaliyyəti birbaşa insan həyatının qorunması ilə bağlıdır və bu səbəbdən də dövlət tərəfindən xüsusi diqqət və sosial müdafiə tədbirləri ilə əhatə olunur.**

Minatəmizləmə fəaliyyəti dünyada ən riskli peşələrdən biri hesab olunur. Çünki kiçik diqqətsizlik belə ən ağır nəticələrə səbəb ola bilər. Azərbaycan reallığında isə bu risklər daha da yüksəkdir. Uzun illər işğal altında qalmış ərazilərdə geniş miqyasda minalar basdırılıb və onların dəqiq xəritələri mövcud deyil. Bu isə hər addımı potensial təhlükəyə çevirir. Vətən müharibəsindən indiyədək 264 min 581 hektar sahədə minatəmizləmə fəaliyyəti icra olunub, nəticədə 248 min 583 ədəd mina və digər partlayıcı sursat aşkar edilərək zərərsizləşdirilib. 2020-ci il noyabrın 10-dan bu günədək mina hadisəsi nəticəsində 422 nəfər bu terrorun qurbanı olub, onlardan 73 nəfəri həyatını itirib.

Azərbaycan dövləti təhlükəni və minatəmizləyənlərin üzərinə düşən məsuliyyəti nəzərə alaraq onların sosial müdafiəsini gücləndirmək istiqamətində mühüm addımlar atır. Bu addımlardan biri də minatəmizləmə fəaliyyəti zamanı həlak olan və ya aldığı xəsarətlər nəticəsində həyatını itirən şəxslərin ailə üzvləri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsidir. Bu qərar təkcə sosial yardım deyil, həm də dövlətin bu sahədə çalışan insanlara verdiyi yüksək dəyərin göstəricisidir.

Fərmana əsasən, minatəmizləmə fəaliyyəti zamanı partlayıcı sursatların işə düşməsi nəticəsində baş verən bədbəxt hadisə ilə əlaqədar həlak olan və ya sonradan aldığı xəsarətlərdən vəfat edən minatəmizləyənlərin ailə üzvlərinə aylıq 700 manat məbləğində Prezident təqaüdü müəyyən olunub. Bu məbləğ ailə üzvlərinin sayına uyğun olaraq bərabər hissələrə bölünür. Təqaüdün verilməsi isə dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

Bu təqaüdün əhatə etdiyi şəxslər dəqiq şəkildə müəyyən olunub. Belə ki, mərhum minatəmizləyənin dul həyat yoldaşı, valideynləri, 18 yaşına çatmamış övladları bu sosial təminatdan yararlanır. Əgər övladları təhsil alırlarsa, bu hüquq onların təhsil müddəti bitənədək, lakin maksimum 23 yaşına qədər qüvvədə qalır. Eyni zamanda 18 yaşına çatmamışdan əvvəl əlilliyi müəyyən edilmiş və 18 yaşdan yuxarı olan əlilliyi olan övladlar da bu təqaüdü almaq hüququna malikdir. Bundan əlavə, uşaq evlərində tərbiyə olunan qardaş və bacılar, həmçinin birinci növbədə digər qohumları olmayan baba və nənələr də bu sosial təminat sisteminə daxil edilib.

Minatəmizləmə fəaliyyətini həyata keçirən zaman vəzifə borcunu yerinə yetirərkən həlak olmuş minatəmizləyənlərin övladlarının ödənişli əsaslarla təhsil aldıqları müddətdə (əlavə təhsil istisna olmaqla) təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi və onların ailə üzvlərinə vergi güzəştinin tətbiqi nəzərdə tutulur.

Bununla bağlı hazırlanmış Vergi Məcəlləsində, "Təhsil haqqında" və "Minatəmizləmə fəaliyyəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi Milli Məclisdə ikinci oxunuşdan keçib. Qanun layihəsinin keçid müddəalarına əsasən, 2026-cı il sentyabrın 15-dən tətbiq edilməsi nəzərdə tutulan dəyişikliklər bu qanun qüvvəyə mindiyi tarixədək minatəmizləmə fəaliyyətini həyata keçirən zaman həlak



olan və ya bu zaman aldığı xəsarətdən həyatını itirən minatəmizləyənlərin övladlarına da şamil olunur.

ANAMA işçilərinin fəaliyyəti təkcə təhlükəli deyil, həm də strateji əhəmiyyət daşıyır. Onların fədakarlığı nəticəsində kəndlər, şəhərlər, yollar, əkin sahələri və digər obyektlər təhlükəsiz hala gətirilir. Bu isə məcburi köçkünlərin doğma yurdlarına qayıdışını mümkün edir, iqtisadi fəaliyyətin bərpasına şərait yaradır və regionda ümumi sabitliyə xidmət edir. Başqa sözlə, minatəmizləyənlər Azərbaycanın postmünaqişə dövründə yenidənqurma prosesinin ön cəbhəsində dayanırlar.

Bu reallıqları nəzərə alaraq, son illərdə minatəmizləmə sahəsində çalışanların sosial təminatının gücləndirilməsi istiqamətində bir sıra əlavə tədbirlər də həyata keçirilir. Onların əməkhaqları artırılır, sığorta təminatı genişləndirilir, peşə hazırlığı və təhlükəsizlik standartları yüksəldilir. Eyni zamanda beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində yeni texnologiyaların tətbiqi və iş şəraitinin yaxşılaşdırılması istiqamətində işlər görülür.

Minatəmizləmə fəaliyyətində texnologiyanın rolu getdikcə artır. Müasir detektorlar, robot texnikası, dronlar və digər innovativ vasitələr risklərin azaldılmasına kömək edir. Lakin buna baxmayaraq, insan faktoru hələ də həlledici olaraq qalır. Çünki bir çox hallarda qərar vermək, riskləri qiymətləndirmək və son addımı atmaq məhz insanın üzərinə düşür. Bu isə peşəkar hazırlıqla yanaşı, böyük psixoloji dözümlülük tələb edir.

ANAMA işçilərinin psixoloji vəziyyəti də xüsusi diqqət tələb edən məsələlərdəndir. Daim təhlükə altında işləmək insanın psixikasına ciddi təsir göstərir. Bu səbəbdən onların dəstəklə təmin olunması, reabilitasiya proqramlarına cəlb edilməsi və stresin idarə olunması üzrə tədbirlərin həyata keçirilməsi də vacibdir. Dövlət və müvafiq qurumlar bu istiqamətdə də müəyyən addımlar atır.

Cəmiyyətin bu peşəyə münasibəti də mühüm rol oynayır. Minatəmizləyənlər çox vaxt görünməyən qəhrəmanlar kimi fəaliyyət göstərirlər. Onların işi nəticəsində təhlükəsiz həyat təmin olunur, lakin bu əməyin dəyəri hər zaman yetərincə görünmür. Bu baxımdan, ictimai maarifləndirmə, mediada bu mövzunun işıqlandırılması və ANAMA işçilərinin fəaliyyətinin təbliği də önəmlidir. Eyni zamanda gənclərin bu sahəyə marağının artırılması da vacibdir. Peşəkar kadrların hazırlanması üçün təlim proqramlarının genişləndirilməsi, ixtisaslaşmış kursların təşkili və beynəlxalq təcrübənin öyrənilməsi gələcəkdə bu sahənin daha da inkişaf etməsinə şərait yaradacaq. Bu isə həm təhlükəsizliyin təmin olunması, həm də sosial-iqtisadi inkişaf baxımından mühüm əhəmiyyət daşıyır.

Minatəmizləmə sahəsində çalışanların sosial təminatının gücləndirilməsi yalnız humanitar məsələ deyil, həm də dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Bu, bir tərəfdən, insan həyatına verilən dəyərin göstəricisidirsə, digər tərəfdən, strateji məqsədlərə xidmət edir. Çünki təhlükəsiz mühit olmadan inkişaf mümkün deyil. Prezident təqaüdünün təsis edilməsi bu siyasətin tərkib hissəsi kimi xüsusi əhəmiyyət daşıyır. Bu addım həm də cəmiyyətə mesaj verir ki, dövlət öz vətəndaşını, xüsusilə də həyatını riskə atanları tək qoymur. Onların ailələri daim diqqət və qayğı ilə əhatə olunur.

ANAMA işçiləri Azərbaycanın təhlükəsiz gələcəyinin təmin olunmasında əvəzsiz rol oynayırlar. Onların fəaliyyəti sayəsində torpaqlarımız yenidən həyat qazanır, insanlar öz yurdlarına qayıdırlar və ölkənin inkişafı üçün yeni imkanlar yaranır. Bu çətin və məsuliyyətli işin arxasında isə böyük fədakarlıq, peşəkarlıq və cəsarət dayanır. Dövlətin göstərdiyi sosial dəstək isə bu fədakarlığın qiymətləndirilməsi və gələcək nəsillər üçün nümunə kimi təqdim olunması baxımından xüsusi önəm kəsb edir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## 23 Aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür

**Aprelin 22-də Əqli Mülkiyyət Agentliyi tərəfindən "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir və ya Qədim Turan haqqında və Kiçik Asiya ərazilərində prototürk qəbilələri və onların Qafqaz ilə əlaqələri" mövzusunda konfrans keçirilib.**



# "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir"

AZƏRTAC xəbər verir ki, konfrans 23 Aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Gününə həsr olunub.

Konfransı açan Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov bildirib ki, aprelin sonu əqli mülkiyyət aləmində əlamətdar dövrdür. Aprelin 23-ü Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür və aprelin 26-sı Beynəlxalq Əqli Mülkiyyət Günüdür. Bu əlamətdar günlərin təntənəli şəkildə qeyd olunmasında Azərbaycan böyük təcrübəyə malikdir. 1997-ci ildən Kitab və Müəlliflik hüququ bayramı, 2001-ci ildən əqli mülkiyyətin təntənəli günləri ölkəmizdə keçirilir. Bu ənənə agentlikdə illər boyu mövcuddur: 10 ildir ki, "Qədim mətnlər və klassik mənbələr erməniçilik saxtakarlıqlarını və uydurmalarını ifşa edir" və hər il "və ya" sözləri yeniləşən bu konfrans böyük maraqla qarşılanır və ictimai rəydə öz yerini tutur.

"Bu tədbirin keçirilməsində məqsədimiz əqli mülkiyyətə, xüsusən kitablara və onları qoruyan müəlliflik hüququna diqqəti cəlb etmək, yaradıcılığa dəstək vermək, əqli mülkiyyət mədəniyyətinin artırılmasına xidmət göstərmək və hay-erməniçilik saxtakarlıqlarını, uydurmalarını və yalanlarını ifşa etməkdir.

Son illər tədbirlərin keçirilməsi xüsusi əhvali-ruhiyyə ilə müşahidə olunur: öz gücü hesabına ədaləti bərqərar edən müzəffər xalq və qalib dövlət suveren ərazisinə özü nəzarət edir.

Unudulmayan tarix və bərpa olunan gələcək hamımızı ruhlandırır.

Prezident İlham Əliyevin sözləri ilə desək, hər zaman "güclü olmalıyıq, keçmişi unutmamalıyıq və gələcəyə inamla baxmalıyıq", - deyə Kamran İmanov vurğulayıb.

Agentliyin rəhbəri diqqətə çatdırıb ki, hərbi gücü diplomatiya ilə, iqtisadi inkişafı sosial ədalətlə və milli birliyi qlobal mövqe ilə uzlaşdıran, konseptual inkişaf xəritəsini və Azərbaycan vətəndaşını bu siyasətin mərkəzində saxlayan müəllif Prezident İlham Əliyevdir.

Heç təsadüfi deyildir ki, məşhur türk müdriklik xəzinəsi "Qutadqubilik"də qeyd olunduğu kimi, "Səadətə aparan əqldir".

Otuz il ədalətin bərpasına gücünü əsirgəməyən, 44 gündə bizə qürur bəxş edən və 23 saat 43 dəqiqə ilə şərəf və sevinc gətirən Ali Baş Komandan səadətimizi qurdu. Bir həqiqətdir ki, zaman öz müddət kəsiyi, uzunluğu ilə deyil, dərinliyi ilə ölçülür. Zəka dərinliyi isə ictimai təsiri ilə, yaratdığı kölgəsinin həcmi ilə ölçülməlidir.

Məşhur Seneka demişdi ki, sabahkı günün sahibi olmadan gələcəyə aid planların qurulması mənasızdır. Odur ki, gələcəkdə dəyişikliyi gözləyiriksə, gerçəkdə o dəyişikliklərə üz tutub, əsasını qurmalıyıq. Burada Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna tarixi rolu danılmazdır - o sabahın memarı olaraq hər ötən günü səxavətlə gələcək naminə qura bilib. Hadisələr göstərdi ki, Prezident İlham Əliyev nə qədər uzaqgörən, səbirli, düşməni səhv etməyə vadar edən və həmin səhvlərdən məharətlə üstünlük qazanan, gərəkli hadisələri yaratmağı bacaran və baş verənlərdən ustalıqla istifadə edən dahi siyasətçi olmasıdır.

"On illər boyu mifologemlər yuxusunun əsiri olan Armeniyaya hazırda qalib dövlətin təklif etdiyi sülh sazişi Vaşinqtonda paraflandı və bununla bağlı Azərbaycan dövləti əməli addımlar atır. Biz ümid edirik ki, bununla hay-erməni mifologiyasını formalaşdıran "böyük torpaqlar və qonşulara qarşı ərazi iddiaları bağlantısı" keçmişə çevriləcək, qonşuların mədəni irsinin mənimsənilməsinə "təbiilik", hətta "legitimlik" gətirən fəlsəfəsi maneə kimi aradan götürüləcək, erməni siyasətçilərinin, dövlət və kilsə xadimlərinin, alimlərinin, nəhayət, kütlənin əxlaqını təyin edən dünyagörüşü aradan qaldıracaq. Bununla da ermənilərin "müstəsnalığı" və "əzabkeşlik" "xüsusi missiyaları" tezislərindən irəli gələn ambisiya və iddialar erməniçilik düşüncəsində təbii olan adilik rolu ilə əvəz olunacaq.

Təəssüflər olsun ki, qədim xəstəliyin residivləri bu gün də özünü büruzə verir.

1987-ci ildə Aleksan Akopyanın "Yunan-Latın və Qədim Erməni Mənbələrində Albaniya-Aluank" kitabının birinci nəşri çap olundu. 2022-ci ildə nəşr yenidən işlənib, tarixi saxtakarlığın yeni bir hissəsi ilə tamamlandı və bu yalançı tarixi əsərin ikinci nəşri ləğv olunmuş qondarma "Artsax Respublikası"nın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin maliyyə dəstəyi ilə peyda oldu və "iş" Ermənistan Respublikası Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun elmi şurası tərəfindən nəşr üçün tövsiyə edildi (İrəvan, 2022). Yenidən çap olunmuş əsərə hansı prinsipial yeni əlavələr daxil edildi? Elanda qeyd edildiyi kimi, müəllif inandırıcı şəkildə göstərir ki, heç vaxt formalaşmamış etnik birlik kimi özünütəyinini əks etdirməyən "albanlar" termini yalnız Albaniya adlı etnoslararası siyasi və inzibati cəmini əks etdirən əhalisini ifadə edir.

Yalançı elmi terminologiyanı bir kənara qoysaq, bu düzəliş alban etnik qrupunun mövcudluğunun inkarına bərabərdir, baxmayaraq ki, oxşar saxtakarlıqlar digər hay-erməni müəllifləri tərəfindən dəfələrlə istifadə edilmişdir. Bu təkrar nəşrin digər "yeniliyi" ümumi qəbul edilmiş "Albaniya tarixi"nin Musa Kalankatuklu müəllif kimi adının əvəz edilməsidir və bu əsər Movses Dasxurantsi adı altında ortaya çıxır. Bu da yeni bir şey deyil, çünki bəzi tədqiqatçıların fikrincə, "Albaniya tarixi"nin son hissəsi fərqli üsluba malik başqa bir müəllif, ehtimal ki, Dasxurantsi tərəfindən yazıla bilərdi.

Professor Kamran İmanov bu saxtakarlıqların necə yaranmasına diqqət çəkərək bildirib:

**Birincisi,** hay-erməni müəlliflərinin böyük əksəriyyətində olduğu kimi, Kür çayının sağ sahilindəki ərazinin əvvəlcə "Böyük Ermənistan"ın bir hissəsi olduğu iddia edilir. Lakin IV-V əsrlərdən sonra Ermənistan, İberiya və Albaniya dövlətləri Sasani hakimiyyəti altında marzpanlıqlar oldu və Kür çayının sağ sahilini (Utik və Artsax) Alban Marzpanatına daxil edən Sasanilər oldu.

Məhz bu andan etibarən və xüsusən də bizə gəlib çatan "Albaniya tarixi"ndə Artsax və Utik torpaqları alban torpaqlarına çevrildi.

**İkincisi,** tanınmış alban tayfaları olan kaspilər, qarqarlar, eləcə də udilərin etnik kimlikləri və yaşadıqları ərazilər saxtalaşdırılır, sakesinlərin albaniya torpağı olan Sakasena sakasenləri ilə eyniləşdirilməsi inkar edilir və ümumiyyətlə, saklar Xəzərin şərq və ya cənub-şərq sahilində, sakasinlər isə Kürün sol sahilində yaşamalıdırlar.

**Üçüncüsü,** Kaspi tayfasının Paytakaran (sağ sahil) ərazisində lokalizasiyası inkar edilir və qədim mətnlərdən və klassik mənbələrdən məlumatlar şübhə altına alınır, kaspilərin yaşayış yeri Xəzər dənizinin cənub sahilinə "köçürülür". Üstəlik, kaspilərin yaşayış yeri Paytakaran deyil, sadəcə, qədim Albaniyanın sahil bölgəsidir. Lakin əsl Kaspiana Paytakaran ərazisində yerləşən erməni Kaspkıdır.

Bu, Kaspiananın yığma ad olduğu və müəllifin fikrincə, "Kaspilərdən alban tayfalarından biri kimi danışmaq əsassız" olduğu qənaətinə gəlməyə əsas verir.

**Dördüncüsü,** müəllifin fikrincə, qarqarlar (Qarqarey) alban tayfası deyil və bu etnonim tarixçi (M. Xorenatsi) tərəfindən təhqiramiz şəkildə, yəni Albaniyanın sol sahili və qonşu dağlıq bölgə əhalisinə qarşı narazılıq, ikrah və ya mənfi məna ifadə edən sözlərdən istifadə etməklə, təqdim olunur.

Bu məqsədlə Kür çayının sağ və sol sahillərinin eramızdan əvvəl II əsrdən əvvəl Qafqaz Albaniyasına məxsus olduğunu iddia edən məşhur alim K.V. Treverin ("Tarix və Mədəniyyət haqqında esselər...") fikri inkar edilir.

Eynilə digər aparıcı mütəxəssis A.P.Novoseltsevin (Qafqaz Albaniyası: Problemlər, Çətinliklər və Onların Aradan Qaldırılması Yolları, "Vostok", 1991, № 5, Moskva) tənqidi materialı, hansında Akopyanın yazdıqları qərəzli fikirləri təqdim etməsinə görə mübahisəli hesab edilir.

**Beşincisi,** müəllifin udilər haqqındakı nəticələri səhv olaraq, alban tayfaları siyahısından çıxarılır. İstinad edilən əsərə görə, "26 alban tayfasından biri - udilər - qədim mənbələrdə müəllifin fikrincə qeyd olunmur, lakin qədim müəlliflərin Dərbəndin şimalında, Xəzər sahilində yaşayan eyni adlı digər ləzgi dilli tayfaları bildiyi faktına əsaslanaraq yenidən qurula bilər..."

Bunu necə yenidən qurmaq olar? A.Akopyanın fikrincə, nə qədim klassik, nə də qədim erməni mənbələrində X əsrdən əvvəlki "Qərbi Alban udilər"dən bəhs edilmədiyindən, bu tayfanın heç bir əhəmiyyətli rol oynamadığını düşünmək ağlabatan görünür..."

"Yalnız son Orta əsrlərdə Kutkaşen-Şəki bölgəsindəki alban tayfalarının qalıqları vahid etnik qrupda (millətdə) birləşdi və ehtimal ki, bu ərazinin qədim alban tayfalarından birinin - utilər-udilər..." adını qəbul etdilər.

Altıncısı, oxşar bir konfransda biz tərəfdən bildirdiyimiz və yenilik kimi təqdim edilən daha bir sınaqdan keçirilmiş yalan. Mahiyyəti odur ki, alban tayfaları hay-ermənilərilə "əvəz olunurlar", Akopyanın yazdığı kimi, "hay-erməniləri özlərini Ermənistanın qalan hissəsindən inzibati və kilsə-yurisdiksional sərhədlərlə ayıraraq, özlərini yalnız Alban marzpanlığının tamhüquqlu bir hissəsi kimi deyil, həm də onun əsas ağaları kimi hiss etməyə başladılar", yəni "Albaniya ölkəsi" onlar üçün "öz" və doğma oldu. Başqa sözlə, hay-ermənilər yalançı albanlara çevrildilər.

Deyilənlər gülməlidir və şərhləri lazımsız hesab edirəm.

İndiki Ermənistan ərazisinin keçmiş zamanlarda faktiki sakinlərini xatırlatmaq istəyirəm. Yalnız bugünkü Ermənistan ərazisində 29 abidədə Saka türklərinin izləri qorunub saxlanılıb və müasir Ermənistan Respublikasının ərazisinin tamamilə Saklar Çarlığına məxsus olduğu məlum bir faktdır.



Eramızdan əvvəl III əsrdən başlayaraq türk tayfalarının birliyi olan hunlar sonradan iki hissəyə bölünüb və I əsrdə onun bir hissəsi Zəngəzurda məskunlaşıb. Stepan Orbelyanın (eramızın XIII əsri) qeyd etdiyi kimi, "sisaklar təkcə hunların deyil, həm də albanların əcdadlarıdır və hətta onlarla müqayisədə daha qədimdirlər.

Başqa sözlə, qədim sakaların mövcud erkən etnik təbəqəsi eyni etnik mənşəli saka mənşəli yeni bir təbəqə olan sisaklarla örtülmüşdür. Məhz buna görə də Adonts özünün "Yustinian dövründə Ermənistan" kitabında Prokopinin "Sünilərin (Süniklərin) fars erməniləri ilə heç bir qohumluğu olmayan ayrı bir xalq olduğunu" göstərdiyini qeyd edir (Biz illərdir Sisak sülaləsi haqqında məlumat veririk və nəşr olunmuş kitablarımızda Sünik-Sisakan termininin etimoloji izahını vermişik).

20-ci əsrin əvvəllərindən bəri fəal şəkildə istifadə edilən hay-ermənilərin hayi adlandırılmasını əsaslandırmaq üçün vurğulayırıq ki, "Hayastan" termini əvvəlcə etnonim deyil, siyasi termin idi. Əraziyə münasibət, mənsubiyyət göstəricisi idi. Ona etnik məna vermək üçün bu terminlə "Hayasa" ölkəsi və xalqı arasındakı əlaqə saxtalaşdırılıb və bununla da "Hayastan" Hayas + tun = "Hayların evi kimi" təqdim edilib. Lakin erməni alimi Q. Kapantsyan bu yalanı ifşa edərək yazırdı ki, "erməni qrammatik normalarına zidd olaraq, bu [termin] açıq, yalançı etimologiyadır". Terminlər kimi "Hayasa" və "Hayastan" sözləri etimoloji cəhətdən əlaqəli deyil.

Eyni saxtakarlıq "Ermənistan" terminınə və onun "Hayastan" adı ilə əlaqəsinə də aiddir, çünki avstriyalı mütəxəssis E.Fayqlin yazdığı kimi, "erməni" [daha dəqiq desək, arminli] anlayışı qədim zamanlarda etnonim deyildi, məna etibarilə bu gün "rus", "amerikalı", "moskvalı" və s. ifadələri ilə eyni şeyi əks etdirirdi. Bir sözlə, bu termin coğrafi əraziyə münasibəti və ya mənsubiyyəti əks etdirirdi və etnonim deyildi. Lakin xristian kilsəsinin parçalanmasından sonra, hakim Karen (Müqəddəs Qriqori) Parfiya ailəsindən olan Suren tərəfindən təqdim edilən bidətçi (eretik) hərəkata və ya erməni qriqorian inancının doqmalarına (Orta əsrlərdə, Ermənistan bölgəsinin sakinlərinin əksəriyyətinin islamı qəbul etdiyi dövrdə) hay-ermənilər bu coğrafi ərazidə yaşayan xalqların bütün maddi və qeyri-maddi sərvətlərini mənimsəmiş və özlərini onların varisləri elan etmişdilər. Nəticə etibarilə, haylar "ermənilər" adını mənimsəmişdilər. Biz bunu dəfələrlə ictimai çıxışlarımızda qeyd etmişik və çap nəşrlərimizdə də əks etdirmişik.

Hay-erməni saxtakarlıqları və uydurmaları yalnız hay-ermənilərin tarixinə aid deyil və əvvəllər qeyd etdiyim kimi, hay-erməni təbliğat qrupu qonşu xalqların, o cümlədən Azərbaycan xalqının tarixini və irsini təhrif etməkdən çəkinmir".

Professor Kamran İmanov xatırladıb ki, 2013-cü ildə Ruben Qalçyanın müəllifliyi ilə "Азербайджанские историко-географические фальсификации" ("Azərbaycanın tarixi-coğrafi saxtakarlıqları") adlı kitabı nəşr edilib. Bundan öncə isə 2005-ci ildə "Армения в мировой картографии", 2010-cu ildə "Мифологизация истории Азербайджан, Армения, вымыслы и факты" və bir neçə nəşrlər uydurulmuş coğrafi xəritələrə əsaslandırılırdı. Həmin nəşrlərin məqsədi, kitabda qeyd olunduğu kimi, "Azərbaycan elmi və elm ətrafındakı dairələr tərəfindən ermənilərə qarşı yönəlmiş və yüksək hakim təbəqənin dəstəyinə arxalanan tarixi, mədəni-tarixi və kartoqrafiya təbliğatını aşkar və təhlil etməkdən ibarətdir".

Konfransda iştirak edən şəxslərin elmi dairəyə aid olduğunu qeyd edən Kamran İmanov deyib: "Bəs, bizim "uydurma" və "saxtakarlığımız" nədən ibarətdir?

**Birincisi,** yarım əsrdən çoxdur ki, biz erməniləri Cənubi Qafqaza gəlmə, özümüzü isə alban və türk-oğuz qəbilələrdən yaranan köklü, aborigen xalq hesab edirik.

Gülməli və şərhə ehtiyacı olmayan "dəlildir". Lakin hər şeyi kənara qoyub, (çünki bunların cavabı dəfələrlə verilib) bir məsələyə aid dinməmək, susmaq mümkün deyil. Ədaləti öz gücümüz ilə bərpa edən xalq kimi ermənilər tərəfindən işğal edilmiş və hazırda qaytarılmış torpaqlar, əgər onların qədim sahibi, avtoxton əhali olsaydı bu cür dağıdılmış, yerlə yeksan olmazdı.

**İkincisi,** 1918-ci ilə qədər olmayan Azərbaycanla bağlı uydurmaların biri "olmayan qədimliyi" və milli identikliyi təsbit edərək beynəlxalq ictimai rəyə sırımaq və çevirməkdir.

Azərbaycan anlayışı və onun qədimliyi ilə bağlı onlarla milli və xarici alimlər sübutlar gətirib. Millətimizin identikliyi və milli şüuru ilə bağlı İkinci Qarabağ müharibəsi tam aşkarlığı ilə cavab gətirdi.

**Üçüncüsü,** erməni mədəni irsini mənimsəyib, onu albanların və ya azərbaycanlıların mədəni irsi kimi təqdim edirik. Buna layiqli cavablar verilib və bir misal kimi onu da deyə bilərəm ki, 20 ildən artıqdır ki, mənim "Erməni yadelli nağılları" tədqiqatım ingilis, rus və bir neçə dilə tərcümə olunaraq, işıq üzü görüb, lakin bu günə qədər bir sanballı "yalanlarımızı" ifşa edən ermənilər tərəfindən yazılan (lənətlər və təhqirlər istisna olmaqla) bir etiraz görməmişik.

Halbuki erməni saxtakarlıqları və uydurmaları bu kitabda geniş təqdim olunur.

Dördüncüsü, müəllifin fikrincə "əgər Azərbaycan ziyalıları hesab edirlər ki, müstəqil, özünəməxsus və qədim mədəniyyətə malikdirlər, onlar müəyyən etməlidirlər - kökləri haradandır - asiyalı türklərdən, yoxsa xristian qafqaz albanlardan?"

Cavab, necə deyərlər, göz qabağındadır.

Lakin ermənilər də yaxşı olar digər məsələyə cavab axtarsınlar: Armeniya sözü haradan əmələ gəlib, uydurma Xayasa necə Xay-ermənilərlə bağlıdır və nəhayət, İncili təftiş edən yeganə xalq hansıdır?

Sonda türklər haqqında kitab yazan adam, ən azı müasir rus dilində səslənən "törk" və "turok" ("törki" və "turki") sözləri arasında fərqi görməlidir. Lüğətlərdə "törki" qohum dillərdə danışan xalqların geniş qrupu kimi təsbit olunur; bu qrupa azərbaycanlılar, qazaxlar, qırğızlar, türkmənlər və türklər daxildir. Buna uyğun olaraq, "törk" geniş, yəni konkret bir etnik qrupu deyil, ümumən türk xalqlarını ifadə edən üst-etnik mənada işlədilir.

"Turki" isə rus dilinin normasına görə Türkiyənin əsas əhalisini təşkil edən konkret xalqın adıdır; tək halda bu söz "turok" formasında işlənir. Başqa sözlə, münasibət belədir: bütün türklər türk xalqlarına daxildir, lakin bütün türk xalqları türklər deyildir. Türk dili də öz növbəsində türk dillərindən biridir.

İngilis dilində bu fərq adətən daha aydın şəkildə ifadə edilir:

- Turkic - geniş linqvistik və etnomədəni termin: Turkic peoples, Turkic languages;
- Turkish - Türkiyəyə, Türkiyə türklərinə və ya türk dilinə aid olan anlayış.

Məhz buna görə də ingilis dilində bu anlayışların qarışdırılması daha az baş verir. "Törki" və "turki" sözlərinin zahiri oxşarlığı səbəbindən qarışıqlıq yaranır (İngilis dilində isə Turkic/Turkish qarşılığı həm qrafik, həm də semantik baxımdan daha aydın ayrılmışdır).

Bunlar belədir. Lakin Azərbaycan türkləri haqqında yazmağa cəsarət tapan, üstəlik, köklərimizi axtaran və bizə "məsləhətlər" verən "alim" ən azı bunları bilməlidir.

Corc Bernard Şounun sözlərini yenidən ifadə etsək, yalan və böhtanların bu və ya digər şəkildə cəzalandırıldığını qeyd edirik. Əsas cəza isə artıq heç kimin yalançıya və saxtakara inanmaması deyil, özlərinin artıq heç kimə inanmamasıdır.

Sual yaranır: hay-erməni millətçi alimlərinin heç olmasa öz liderləri, Baş nazir N.Paşinyanın çağırışına qulaq asmalarının vaxtı çatmayıbmı?

Hay-ermənilərlə heç bir əlaqəsi olmayan Van Krallığının (Urartu dövləti) yalan mövqelərindən bugünkü Ermənistana, uydurma, saxtalaşdırılmış tarixi Ermənistandan əsl Ermənistana keçməyin vaxtı çatmayıbmı, çünki əsl Ermənistan tarixi Ermənistana çevrilə bilər?

Həqiqətən də, Ermənistanda tarixin çarxını geri çevirməyə çalışan, ölkədə iyun seçkilərindən sonra yeni müharibə riskini yarada bilən sülh gündəliyinə qarşı çıxan qüvvələr var. Baş nazirin sözlərinə görə, müharibə partiyaları "...başqaları tərəfindən yazılmış mətnləri səsləndirir..., ağır nəticələrə səbəb olacaq yeni sentyabr müharibəsi hazırlayırlar". Bu cür planların legitimləşdirilməsi üçün əsas rol oynayan və qonşu torpaqlara iddialar irəli sürən və qonşularına qarşı təhdidlər ehtiva edən Ermənistanın Müstəqillik Bəyannaməsi mahiyyət etibarilə "münaqişə və asılılıq bəyannaməsi"dir. Bu baxımdan Paşinyan Ermənistan cəmiyyətini xarici dəstək vasitəsilə "sağ qalmaqla ömür sürmək məntiqi"ndən imtina etməyə və "inkişaf, çiçəklənmə və sülh məntiqi"ni qəbul etməyə çağırır.

Beynəlxalq hüququ və tarixi ədaləti öz gücü ilə bərpa edən xalqımız milli iradənin və dövlət qətiyyətinin dünyaya parlaq nümunəsini gətirdi. Hazırda Azərbaycan Cənubi Qafqazda sülhə və əmin-amanlığa səs verib və praktiki əməllərlə bu istəyini nümayiş etdirir. Antisülh, revanşist qüvvə və dairələrin mövcudluğuna baxmayaraq, biz sülhsevər münasibəti qonşu ölkədən gözləyirik və buna bizim qalib ölkə və müzəffər millət kimi haqqımız çatır.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva çıxışında tarixi-mədəni irsin qorunmasının beynəlxalq hüququn və insan hüquqlarının ayrılmaz tərkib hissəsi olduğunu vurğulayıb. O bildirib ki, əqli mülkiyyət hüquqlarının müdafiəsi və hüquq pozuntularının qarşısının alınması Ombudsman Aparatının əsas fəaliyyət istiqamətlərindəndir.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli dünya xalqlarının böyük əksəriyyətinin sivilizasiyaların formalaşmasında mühüm rol oynadığını qeyd edib. Akademik ermənilərin qədimdən səpələnmə xalq olduqları barədə fikirlərini səsləndirib.

Milli Məclisin deputatı Hikmət Babaoğlu isə bildirib ki, qədim mənbələrə əsaslanan elmi yanaşma tarixə obyektiv baxışın formalaşmasında həlledici rol oynayır. Mədəni irsin qorunması və onun beynəlxalq müstəvidə düzgün təqdimatı tarixi saxtalaşdırma cəhdlərinə qarşı ən təsirli vasitələrdən biridir. Deputat əlavə edib ki, bu istiqamətdə sistemli elmi tədqiqatların genişləndirilməsi və əldə olunan nəticələrin beynəlxalq elmi ictimaiyyətə çatdırılması xüsusi əhəmiyyət daşıyır.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli çıxışında həm Azərbaycan, həm də regionla bağlı tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasının vacibliyini vurğulayıb. O bildirib ki, bu proses erməni saxtakarlıqlarının ifşası ilə paralel şəkildə aparılmalıdır və müstəqil Azərbaycan artıq öz tarixinə sahib çıxır.

AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov Azərbaycan tarixinə yeni konseptual baxışın vacibliyini qeyd edib. O bildirib ki, Azərbaycan çoxmillətli dövlətdir və onun inkişaf yolu dünya ölkələri ilə müqayisədə olduqca mürəkkəb tarixi mərhələlərdən keçib.

Daha sonra Kamran İmanov konfransın mövzusuna uyğun geniş məruzə ilə çıxış edib, qədim mətnlər və klassik mənbələr əsasında aparılan tədqiqatların əhəmiyyətindən danışıb.

Konfrans müzakirələrlə davam edib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

### Tərəfdaşlarımız

## Azərbaycanda ən böyük bərpaolunan enerji stansiyasının investoru - "ACWA Power"

**Uzun illərdir ölkəmizin neft, qaz və ixrac layihələrindəki etibarlı tərəfdaşları sırasına son vaxtlar dünyada "yaşıl enerji" sahəsində şöhrət qazanmış bir sıra şirkətlər də qoşuldu. Qısa zamanda Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətləri gerçəkləşdirdikləri layihələrlə Azərbaycanda da öz dəst-xətlərini tanıtdılar.**




"ACWA Power"ın inşa etdiyi 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılış mərasimi bu il yanvarın 8-də keçirildi. Əvvəlcə həmin möhtəşəm stansiyanı tikən şirkət haqqında: Səudiyyə Ərəbistanının enerji, xüsusilə bərpaolunan enerji sektorunda aparıcı şirkətlərindən olan "Acwa Power" 2004-cü ildə yaradılıb. Şirkət dünyanın bir sıra ölkələrində bərpaolunan enerji mənbələrindən elektrik enerjisi istehsalı, duzsuzlaşdırılmış su istehsalı üzrə layihələrdə developer, investor və operator kimi iştirak edir.

Sözügedən stansiyanın tikintisi üçün Abşeron rayonunda 14,2, Xızı rayonunda isə 22,6 hektar olmaqla ümumilikdə 37 hektara yaxın torpaq sahəsi bərpaolunan enerji mənbələrinin ərazisi müəyyən edilib. Layihə üzrə burada hər biri 6,5 MVt olan ümumilikdə 37, o cümlədən Abşeronda 12, Xızıda 25 turbin, həmçinin ölçü-müşahidə stansiyaları, quşların mühafizəsi sistemləri quraşdırılıb. Layihənin icrasına təxminən 340 milyon dollar xarici investisiya yönəldilib.

Stansiyanın illik enerji istehsalı həcmi təqribən 1 milyard kilovat-saat nəzərdə tutulur ki, bunun da nəticəsində 220 milyon kubmetr təbii qaza qənaət olunacaq və 400 min tondan çox karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Layihənin baş podratçısı Çinin "Power China Group"un törəmə şirkəti olan "Power China Huadong Engineering Co., Ltd."dir. Beləliklə, demək olar ki, bu layihənin həyata keçirilməsində üçtərəfli - Azərbaycan, Səudiyyə Ərəbistanı, Çin tərəfdaşlığı yaranıb.

Stansiyanın açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev dedi:" Bu, çox önəmli hadisədir. Ölkəmizin enerji potensialını gücləndirəcək stansiya bu gün artıq fəaliyyətə başlayır. Əminəm ki, 240 meqavat gücündə stansiya ölkəmizin ümumi inkişafına öz töhfəsini verəcəkdir. Mən yaxşı xatırlayıram ki, düz dörd il bundan əvvəl - 2022-ci ilin yanvar ayında bu salonda bu stansiyanın təməlini qoymuşduq. Bu illər ərzində fəal iş aparılmışdır və bu gün biz bu gözəl hadisəni birlikdə qeyd edirik. İlk növbədə bu stansiyanın tikintisində əməyi keçmiş bütün insanlara, şirkətlərə təşəkkürümü bildirmək istəyirəm, ilk növbədə investor olan "ACWA Power" şirkətinə, onun rəhbərliyinə".

"Xızı-Abşeron" bu şirkətin Azərbaycanda inşa etdiyi birinci bərpaolunan elektrik stansiyasıdır, ancaq sonuncu deyil. Onun ölkəmizdə daha böyük planları var və Azərbaycan dövləti də bu planları tam dəstəkləyir.

Təsadüfi deyil ki, iki il əvvəl "ACWA Power"in Azərbaycanda "ACWA Power Technical Financial Services" törəmə şirkəti də yaradılıb. Şirkət məhdud məsuliyyətli cəmiyyət (MMC) formasında və 50 min dollar nizamnamə kapitalı ilə qeydiyyatdan keçib.

"ACWA Power" şirkəti ilə tərəfdaşlığımızın tarixi qısa olsa da, zəngindir. Ötən bir neçə il ərzində hər iki tərəfdən olan qurum rəhbərlərinin, mütəxəssislərin çoxsaylı görüş və müzakirələri olub. Heç uzağa getməyək, keçən ilin sentyabrında energetika naziri Pərviz Şahbazov və "ACWA Power" şirkətinin baş icraçı direktoru Marco Arcelli görüşmüşdülər. Görüşdə "ACWA Power" şirkətinin Azərbaycanda yeni layihələr vasitəsilə fəaliyyətini genişləndirməsi məmnunluqla qeyd olunmuşdu. Azərbaycanın "yaşıl enerji" gündəliyinin reallaşdırılmasında şirkətlə tərəfdaşlıq çərçivəsində quruda və dənizdə sənaye miqyaslı külək enerjisi istehsalı, habelə ötürülməsi layihələrinin icrası müzakirə edilmişdi. Həmçinin ixrac, eləcə də daxili istehlak məqsədilə yeni, əlavə "yaşıl enerji" güclərinin enerjisistemə inteqrasiyası məqsədilə aparılan şəbəkə tədqiqatı çərçivəsində şirkətlə 200 MVt-lıq külək-elektrik stansiyası layihəsinin həyata keçirilməsinə dair fikir mübadiləsi aparılmışdı. Naxçıvandan Türkiyəyə elektrik enerjisinin tədarükü məqsədilə aparılan araşdırmalar barədə məlumat verilmiş və burada "ACWA Power" şirkəti ilə külək enerjisi layihəsinin reallaşdırılması perspektivləri dəyərləndirilmişdi. Söhbət zamanı dənizdə enerji istehsalı üzrə əməkdaşlığa da toxunulmuşdu.

Dənizdən söz düşmüşkən onu da qeyd edək ki, ölkəmizdə ilk dəfə icra ediləcək Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsinin də investoru bu şirkət olacaq.

"Xızı-Abşeron" stansiyasının açılışında "ACWA Power" şirkətinin təsisçisi və icraçı direktoru Məhəmməd Əbunəyyanın çıxışı da məhz gələcəkdə tərəfdaşlığın daha da genişlənəcəyindən xəbər verir: "Biz hamımız bir araya gəldik, layihə çərçivəsində çalışdıq, əl-ələ verdik ki, bu uğur əldə olunsun və bu gün həmin uğur artıq göz qabağındadır. Bu, bizim tərəfdaşlığımızın və nümunəvi işgüzar münasibətlərimizin yaxşı bir göstəricisidir... Cənab Prezident, biz xoşbəxtik ki, burada - Azərbaycandayıq. Biz xoşbəxtik ki, Siz bizə etimad göstərmisiniz. Siz bizə bu fürsəti yaratdınız. Biz həmçinin burada duzsuzlaşdırma layihəsi ilə bağlı məsələləri də müəyyən etdik. Qeyd etdik ki, bu da bizim növbəti gözəl layihəmiz ola bilər. Biz bu nadir layihəni Xəzər dənizində icra edəcəyik. Dünyada bir çox ölkələr bu kimi layihələri hələ həyata keçirməyib".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Ələt Azad İqtisadi Zonası üzrə İşçi Qrupun III iclası keçirilib

**Ələt Azad İqtisadi Zonasının inkişafı və investisiya imkanlarının genişləndirilməsi məqsədilə yaradılmış İşçi Qrupun III iclasında zonada həyata keçirilən layihələr, infrastruktur quruculuğu və investorların cəlbi məsələləri müzakirə olunub.**

İqtisadiyyat naziri, İşçi Qrupun rəhbəri Mikayıl Cabbarovun iştirakı ilə keçirilən iclasda Ələt Azad İqtisadi zonasının fəaliyyətinin səmərəli təşkili və investisiyaların cəlb edilməsi ilə bağlı məsələlər ətrafında müzakirələr aparılıb.

Bildirilib ki, Ələt Azad İqtisadi Zonasında qabaqcıl idarəetmə təcrübəsinə əsaslanan, yüksək əlavə dəyər yaradan və ixracyönümlü istehsalı təşviq etmək məqsədilə işlər davam etdirilir.

Tədbirdə Ələt Azad İqtisadi Zonasında beynəlxalq hava limanının tikintisi və infrastrukturun qurulması işlərinin icra vəziyyəti barədə məlumat verilib. Azad iqtisadi zonada qeydiyyatdan keçmiş və fəaliyyətə başlamış şirkətlər, bir sıra investorlar tərəfindən təqdim olunan layihələr diqqətə çatdırılıb. Vurğulanıb ki, zonanın fəaliyyətinin gücləndirilməsi innovativ texnologiyalar tətbiq edən investorların cəlb edilməsi, onların yerli şirkətlərlə əməkdaşlığının genişləndirilməsi, eləcə də yeni iş yerlərinin yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yaxınlığında və qlobal nəqliyyat dəhlizlərinin üzərində strateji coğrafi mövqeyə malik olan Ələt Azad İqtisadi Zonasında investorlar üçün bir çox fiskal və qeyri-fiskal imtiyazlar tətbiq edilir. Zonada fəaliyyət göstərən rezidentlər üçün xüsusi vergi rejimi çərçivəsində əlavə dəyər vergisi də daxil olmaqla bir sıra vergi və gömrük güzəştləri nəzərdə tutulur. Həmçinin əcnəbi hüquqi və fiziki şəxslərin Ələt Azad İqtisadi Zonasında mülkiyyət sahibi olmasına heç bir məhdudiyyətin tətbiq edilməməsi, valyuta əməliyyatları və mənfəətin repatriasiyasının sərbəst olması, xarici investorlar üçün yerli tərəfdaş və səhmdar tələbinin olmaması və digər üstünlüklər mövcuddur. Bundan başqa, investorlara ərazi-daxili (daxili yollar, elektrik, su, qaz xətləri, kanalizasiya sistemi, rabitə və s.) və ərazi-xarici infrastruktur (magistral yollar, dəmir yolu bağlantıları, dəniz və hava limanına çıxış və s.), eləcə də mühəndis-kommunikasiya sistemləri ilə təchiz edilmiş istifadəyə hazır sənaye torpaq sahələrinin təqdim olunması Ələt Azad İqtisadi Zonasının cəlbediciliyini daha da artırır.

## İspaniya ilə bir sıra sahələr üzrə əməkdaşlıq imkanları müzakirə olunub



**İspaniyaya işgüzar səfər çərçivəsində iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev bir sıra şirkət və maliyyə institutlarının rəhbərləri ilə görüşlər keçirib.**

Görüşlərdə İspaniya ilə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, investisiya əməkdaşlığının təşviqi, ixracın maliyyələşdirilməsi imkanları və birgə layihələrin reallaşdırılması istiqamətində fikir mübadiləsi aparılıb.

İspaniyanın İxrac Kredit Agentliyinin (CESCE) icraçı direktoru Pablo de Ramon-Lasa Klausen ilə görüşdə ixrac kreditləri, sığorta mexanizmləri, Azərbaycan biznes subyektlərinin İspaniya avadanlıqlarının idxalı üçün maliyyə resurslarına çıxış imkanları və Azərbaycan Biznesinin İnkişafı Fondu ilə əməkdaşlıq perspektivləri müzakirə olunub. Tərəflər sahibkarların beynəlxalq maliyyə alətlərindən istifadə imkanlarının genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

"Grupo Azvi" şirkətinin prezidenti və baş icraçı direktoru Manuel Kontreras Karo ilə görüşdə Azərbaycanın tranzit-logistika potensialı, ölkədə həyata keçirilən iri infrastruktur layihələri və bu istiqamətdə xarici tərəfdaşlarla əməkdaşlığın perspektivləri barədə məlumat verilib. Nəqliyyat, infrastruktur və mühəndislik sahələrində əməkdaşlıq imkanları nəzərdən keçirilib.

"Fomento al Desarrollo del Comercio Internacional SL" şirkətinin baş direktoru Juan Sebastian Garrigues Diaz-Llanos ilə görüşdə isə ticarət əlaqələrinin inkişafı, investisiyaların təşviqi, özəl sektorlar arasında tərəfdaşlığın genişləndirilməsi və yeni biznes təşəbbüslərinin dəstəklənməsi müzakirə olunub.

## 3 ayda DOST mərkəzlərində 237 min vətəndaşa xidmət göstərilib

**Bu ilin I rübündə DOST mərkəzlərində 237 min vətəndaşa xidmət göstərilib. Onların göstərilən DOST xidmətlərindən məmnunluq səviyyəsi 99,2 faiz olub.**

2019-cu ilin may ayından ötən dövrdə ölkəmizdə 7 DOST mərkəzi, Zəngilanın Ağalı kəndində "Smart DOST" xidmət məntəqəsi, Qarabağ Regional DOST Mərkəzinin Şuşa və Tərtərdə filialları, Kəlbəcər və Füzulidə DOST məntəqələri açılıb.



Beynəlxalq səviyyədə də yüksək qiymətləndirilən DOST konsepsiyası əsasında dövlət sosial xidmətləri olan 162 xidmət "bir pəncərə"dən, müasir və çevik, şəffaf mexanizmlərlə, vətəndaş məmnunluğuna uyğun təqdim edilir.

## Təbiətin "ağciyər"i, Bakının "yaşıl çətir"i

**Bu gün bəşəriyyətin qarşısında duran ən ciddi problemlərdən biri ekoloji tarazlığın pozulması və bunun doğurduğu fəlakətlərdir. İqlim dəyişmələri, havanın çirklənməsi, təbii resursların tükənməsi kimi hallar artıq qlobal miqyasda özünü göstərir. Belə bir şəraitdə insanlığın bu təhlükələrdən xilas olmasının əsas yollarından biri yaşıllıqları artırmaq, meşələri genişləndirməkdən ibarətdir.**

Eyni zamanda hər bir fərdin təbiətə qarşı məsuliyyətli davranması, ağacəkmə və təbii sərvətləri qorumağa diqqət yetirməsi də vacibdir. Bu kiçik, amma davamlı addımlar uzun müddətdə böyük ekoloji nəticələrə yol açır. Belə bir vəziyyətdə həm ekoloji tarazlığı qorumaq, həm də sağlam həyatımızı təmin etmək üçün meşələrə və yaşıllıqlara xüsusi diqqət yetirmək zərurəti daha da artır. Sənayeləşmənin sürətlə getdiyi indiki zamanda oksigen udmaq, nəfəs almaq çətinləşir. Bu səbəbdən "yaşıl ciyər"lərimiz hesab olunan meşələrin qorunması və artırılması hər birimizin üzərinə düşən ən vacib vəzifələrdəndir. Bizim də ağciyərlərimizin normal və sağlam fəaliyyəti xeyli dərəcədə bu "yaşıl çətir"dən asılıdır, rahat nəfəs almağımız üçün ona ehtiyacımız çoxdur. Bu nemәti əldən vermək olmaz. İnsan təkcə təbiətə deyil, özünə də qənim kəsilməyə son qoymalıdır. Ağaclar oksigen mənbəyi olaraq iqlimin tənzimlənməsində, biomüxtəlifliyin qorunmasında mühüm rol oynayırlar.

Ağaclar, yaşıllıqlar təbiətin ayrılmaz və ən vacib hissələrindəndir. Yaşıllıq göz işığı, gümrahlıq mənbəyi olduğundan gündəlik həyatımızda əhvali-ruhiyyəmizin



yüksək olması da xeyli dərəcədə bu amilə bağlıdır. Təəssüf ki, aramızda ağaclara laqeydlik nümayiş etdirənlər yox deyil. Hətta toplumda susuzluqdan yanan ağacı görəndə "mənə nə, qoy bu sahə ilə məşğul olanlar əncam çəksinlər" deyən adamlar da var. Bəziləri isə onlara, daha doğrusu, təbiətin "ağciyər"inə əl qaldırmaqdan sanki ləzzət alırlar. Amma dərk etmirlər ki, bununla yalnız ağaca deyil, özlərinin sabahına və təbiətin harmoniyasına balta çalırlar. Bəlkə də bu gün danışıq dilində işlətdiyimiz "oturduğu ağaca balta çalmaq" ifadəsi buradan qaynaqlanıb. Ulu Öndər Heydər Əliyev deyirdi: "Bir ağacı kəsən sanki mənim bir qolumu kəsir". Bu o deməkdir ki, ağaca vurulan zərər, sadəcə, təbiətə deyil, bütövlükdə insana, onun həyatına və gələcəyinə vurulan zərbə kimi qiymətləndirilməlidir, yəni bir ağac insanın bir parçası qədər qiymətlidir və qorunmağa layiqdir.

Nə yaxşı ki, ağaclara etinasız, laqeyd, soyuq yanaşanlar çox deyil. Qədim yunan əfsanəsində deyilir ki, hər bir cavan evlənməzdən əvvəl yeddi zeytun tingi basdırıb onu bar verənə qədər becərməli və sonra evlənməlidir. Azərbaycanda da bənzər ənənələr olub. Dünyaya gələn uşağın adına ağac əkiblər. Kimsə uzaq səfərə çıxanda ağac əkib və o, geriyə dönənə qədər həmin ağacı bəsləyiblər və s. Nə xoş ki, bu gün də ağacəkmə ənənələrini yaşadanlara - rəsmi dövlət qurumlarından tutmuş ayrı-ayrı fərdlərə qədər - şahidlik edirik. Və əlbəttə ki, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də təsadüfi deyildi. Ən maraqlısı odur ki, Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi dünyada bir ilk idi.

Bu və bənzər ideyaların təsiri nəticəsində cəmiyyətdə ağacəkmə və yaşıllığın qorunması istiqamətində daha fəal yanaşma formalaşdı, təşəbbüs kağız üzərində qalmadı. Ölkəmizdə yaşıllaşdırma işlərinə verilən önəm daha da artdı, ağacəkmə aksiyaları geniş vüsət aldı. Son illər müxtəlif bölgələrdə keçirilən ağacəkmə aksiyaları artıq təkcə bir kampaniya deyil, həm də gələcək nəsillərə sağlam mühit miras qoymaq istəyinin bariz nümunəsidir. Artıq insanlar anlayırlar ki, əkilən hər ağac sabahın təmiz havası, sağlam həyatı deməkdir. Ağacəkmə yalnız bir ting basdırmaqdan ibarət deyil. Bu həm də təbiətə sevginin, məsuliyyətin və gələcəyə inamın ifadəsini əks etdirir. Torpağa sancılan çubuq illər sonra böyüyərək həm kölgə, həm oksigen, həm də həyat mənbəyinə çevrilir. Xüsusilə gənc nəslin bu prosesə cəlb olunması onların ekoloji düşüncəsinin formalaşmasına müsbət təsir göstərir.

Bu istiqamətdə aparılan ardıcıl və məqsədyönlü tədbirlərin davamı olaraq ölkəmizdə beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən ekoloji layihələr diqqət çəkir. Belə təşəbbüslər nəticəsində yaşıllaşdırma işlərinin miqyası daha da genişlənir və konkret aksiyalarla özünü göstərir. Növbəti mühüm addımlardan biri Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə ICESCO-nun Bakı Regional Ofisinin birgə əməkdaşlığı, eləcə də Azərbaycan Könüllü Təşkilatları İttifaqı və Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə Müşfiqabad qəsəbəsində iki gün öncə həyata keçirilən ağacəkmə aksiyasıdır. Tədbir çərçivəsində Abşeron yarımadasının torpaq-iqlim xüsusiyyətlərinə uyğunlaşdırılmış 300-dən çox Eldar şamı və zeytun tingi əkilib.

Qeyd edək ki, bu aksiya ICESCO-nun Bakı Regional Ofisinin fəaliyyət coğrafiyasına daxil olan Azərbaycan, Özbəkistan, Tacikistan, Qazaxıstan və Qırğızıstanda ekologiya sahəsində fəaliyyət göstərən qurumlarla tərəfdaşlıq şəraitində həyata keçirilən "Yaşıl budaqlar" regional ağacəkmə kampaniyası çərçivəsində baş tutub. "Yaşıl budaqlar" təşəbbüsü yaşıllıq sahələrinin genişləndirilməsini, ekoloji tarazlığın qorunmasına töhfə verilməsini və ətraf mühitin mühafizəsi istiqamətində ictimai maarifləndirmənin gücləndirilməsini hədəfləyir.

Bu kimi təşəbbüslər göstərir ki, ekoloji məsuliyyət təkcə dövlət qurumlarının deyil, həm də ictimai birliklərin və gənclərin ortaq missiyasına çevrilib. Yaşıllaşdırma istiqamətində atılan hər bir addım gələcəyin daha sağlam və dayanıqlı mühitinə xidmət edir. Əkilən hər ağac isə həm təbiətə qayğı, həm də gələcək nəsillərə verilən dəyərli bir töhfə kimi yadda qalır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Tramp danışıqlar naminə İranla atəşkəs rejimini uzadır

## Lakin qarşılıqlı ittihamlar və qeyri-müəyyənlik fonunda eskalasiya riski artır

**ABŞ və İran arasında gözlənilmədiyi halda atəşkəs rejimi uzadılıb: aprelin 22-də Prezident Donald Tramp Tehran təkliflərini təqdim edənə və danışıqlar nəticələnənə qədər fasilənin qüvvədə qalacağını elan edib. Bu qərar eskalasiya riskini azaldıb, lakin tərəflər arasındakı əsas fikir ayrılıqlarını həll etməyib.**



Trampın açıqlamasından dərhal sonra İran dövlət televiziyası Tehranın atəşkəsin uzadılmasını tanımadığını və Vaşinqtonun öz milli maraqlarına əsasən ona əməl edə biləcəyini və ya bilməyəcəyini açıqlayıb. Qarşılıqlı ittihamlar və qeyri-müəyyənlik fonunda Yaxın Şərqdə hərbi eskalasiya riski sürətlə artır.

ABŞ-nin vitse-prezidenti Cey Di Vensin Pakistana səfərinin təxirə salınması qərarı Vaşinqton və Tehran arasında danışıqlar prosesi üçün narahatedici bir əlamət idi. Səfər əvvəlcə aprelin 22-də başa çatması planlaşdırılan atəşkəsin uzadılması üçün diplomatik cəhdin əsas elementi kimi qəbul edilmişdi.

CNN-in məlumatına görə, Vensin uçuşunun ləğv edilməsi xəbərindən sonra ABŞ administrasiyasının əsas rəsmiləri - dövlət katibi Marko Rubio, müdafiə naziri Pit Heqset və Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Con Retkliff Ağ Evə gəliblər. Görünür, Vaşinqton İranla danışıqlar ətrafındakı vəziyyəti kritik və yüksəksəviyyəli koordinasiya tələb edən hesab edir. Bir neçə saat sonra ABŞ Prezidenti Donald Tramp İranla münaqişədə atəşkəsin Tehran təkliflərini təqdim edənə və danışıqlar başa çatana qədər uzadılacağını elan edib. O, fasilənin razılığa gəlmək üçün lazım olan müddətə qədər qüvvədə qalacağını bildirib.

Bundan əlavə, Amerika lideri Pakistan rəhbərliyinin xahişi ilə İrana mümkün hücumları təxirə salmaq qərarına gəldiyini açıqlayıb. Trampın dəqiqləşdirdiyi kimi, müvafiq xahiş Ordu Baş Komandanı Asim Munir və Baş nazir Şahbaz Şərifdən gəlib və onlar koordinasiyalı mövqe hazırlamaq və danışıqlar prosesini davam etdirmək üçün vaxt istəyiblər.

Prezidentin açıqlamasından əvvəl də İran tərəfi Pakistandakı danışıqlarda iştirak etməklə bağlı yekun qərar vermədiyini vurğulayıb. Tehran ABŞ-dən gələn ziddiyyətli siqnalları müzakirə edib və dialoq perspektivlərini birbaşa Vaşinqtonun hərəkətləri, o cümlədən yeni sanksiyalar və İran gəmiləri ilə bağlı hadisələrlə əlaqələndirib. İran parlamentində daha sərt bəyanatlar verilib: dəniz blokadasını ləğv etmədən danışıqların ikinci mərhələsi prinsipcə mümkün deyil.

Vəziyyət məhz zaman amili səbəbindən getdikcə gərginləşir. İslamabaddakı danışıqlar əvvəlcə atəşkəsin uzadılması üçün bir fürsət kimi nəzərdə tutulmuşdu. Lakin bir gün əvvəl Donald Tramp fasilənin uzadılmasında maraqlı olmadığını bildirərək İranı atəşkəsi pozmaqda ittiham edib. Eyni zamanda o, "əla razılaşma"nın əldə edilə biləcəyinə əmindir. Digər tərəfdən, Tramp ABŞ-nin atəşkəsdən yenidən silahlanmaq üçün istifadə etdiyini və bunun Tehrana açıq bir xəbərdarlıq olduğunu söyləyib.

Danışıqlar uğursuz olarsa, tərəflər yenə də açıq qarşıdurmaya qayıtmaq riski ilə üzləşə bilərlər. Mümkün ssenarilərə İran infrastrukturuna zərbələr, Fars körfəzində gərginliyin artması və Hörmüz boğazında gəmiçiliyə təhdidlər daxildir. Bu, qaçılmaz olaraq qlobal bazarlara, ilk növbədə neft qiymətlərinə təsir edəcək.

Bir sözlə, indi əsas sual artıq Pakistandakı görüşün baş tutub-tutmayacağı deyil, tərəflərin açıq münaqişəyə qayıtmaqdan yayınıb-yayınmayacağıdır.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
Bakı qlobal diplomatiyanın yeni paytaxtıdır
Azərbaycanın növbəti bir il ərzində UNESCAP-a sədrliyi də bunun təsdiqidir
"Şimal-Cənub" marşrutu bütün tərəflərə fayda gətirə bilər
Bakı qlobal urbanizasiya gündəminin mərkəzində olacaq
Antalya Diplomatiya Forumu türk dövlətləri arasında əməkdaşlığın yeni mərhələyə keçidinə təkan verir
Ağ günlərinə qovuşan Ağdam
Avropada həyacan təbili
Azərbaycandan Ermənistana neft məhsullarının növbəti partiyası yola salınıb

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



**Holcim (Azərbaycan) ASC-nin səhmdarlarının nəzərinə**

Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti illik ümumi yığıncağı 18.06.2026-cı il saat 10:00-da Azərbaycan Respublikası, Bakı şəhəri, AZ 1065, İzmir küçəsi, 6 ünvanında yerləşən "Hyatt Regency" hotelinin "Şuşa" zalında keçiriləcəkdir. Səhmdarların qeydiyyatı zalın foyesində saat 08:30-dan 09:50-dək aparılacaqdır.

**Səhmdarların illik ümumi yığıncağının gündəliyi:**

1. Holcim (Azərbaycan) ASC-nin səhmdarlarının illik ümumi yığıncağının sədrinin seçilməsi.
2. Müşahidə Şurasına üzvün seçilməsi.
3. Təftiş Komissiyasına üzvün seçilməsi.
4. Holcim (Azərbaycan) ASC-nin nizamnaməsində dəyişikliyin təsdiq edilməsi.
5. Holcim (Azərbaycan) ASC-nin 2025-ci il üzrə audit olunmuş maliyyə hesabatlarının təsdiqlənməsi.
6. 2025-ci ilin nəticələri üzrə xalis mənfəətin bölüşdürülməsi.

***Holcim (Azərbaycan) ASC***



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**

**ASCO-nun Baş Ofisinə struktur idarələrinə tələb olunan yuyucu vasitələrin satın alınması məqsədilə açıq tender elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 6 may 2026-cı il saat 14:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı, Mikayıl Useynov küç., 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1219**

***Tender komissiyası***


# Lufthansa 20 min uçuşu ləğv edəcək

**Beş ay ərzində 20 min uçuşu ləğv etməklə Lufthansa 40 min tondan çox təyyarə yanacağına qənaət etməyə ümid bəsləyir. 31 may tarixinə qədər uçuşlar üçün planlaşdırılan reyslərin ləğvi artıq başlayıb.**



Almaniyanın flaqman aviaşirkəti Lufthansa ABŞ və İsrailin İranla müharibəsinin yaratdığı enerji böhranı fonunda təyyarə yanacağına qənaət etmək üçün 2026-cı ilin iyun ayından oktyabr ayına qədər 20 min uçuşu ləğv edəcəyini bildirib. Bu, Avropanın ən böyük aviaşirkətinin mətbuat relizində açıqlanıb.

Lufthansa nümayəndələri bu uçuşların ləğv edilməsinin 40 min tondan çox yanacağa qənaət edəcəyini bildirirlər. Lakin mövcud sərnişin - kilometr sistemi ilə ölçülən aviaşirkətin səmərəliliyi (mövcud oturacaqların sayının nəqliyyat vasitəsinin qət etdiyi kilometrlərin sayına vurulması) təxminən bir faiz bəndi azalacaq. Lufthansa iddia edir ki, buna Sürix, Vyana və Brüsseldən mövcud uçuşları genişləndirərkən Frankfurt-Mayn və Münxendən qısaməsafəli "gəlirsiz marşrutları" azaltmaqla nail olunacaq. Dəyişikliklər şirkətin altıncı mərkəzi olan Romaya da təsir edəcək.

Lufthansa iyun-oktyabr ayları arasında ləğv ediləcək uçuşları aprelin sonunda elan edəcəyinə söz verib. Lakin şirkət artıq mayın 31-nə qədər planlaşdırılan uçuşları ləğv edir. Belə ki, şirkət aprelin 20-də Lufthansa ilk 120 gündəlik uçuşu ləğv edib. Xüsusilə Frankfurt-Mayndan Polşanın Bıdqoş və Rzeşova, eləcə də Norveçin Stavanger şəhərinə uçuşlar müvəqqəti olaraq dayandırılıb. Bir həftə əvvəl Lufthansa zərərlə işləyən törəmə şirkəti "CityLine"yə məxsus olan və "texniki imkanlarının həddinə yaxınlaşan" bütün 27 Canadair CRJ təyyarəsini vaxtından əvvəl istismardan çıxarıb.

Aviaşirkət bu addımı həm müharibə, həm də əmək mübahisələri səbəbindən artan qiymətlərə görə atıb.

Eyni zamanda Lufthansa oktyabr ayına qədər uzunməsafəli uçuşlar həyata keçirən dörd Airbus A340-600 və iki Boeing 747-400 təyyarəsini istismardan çıxaracağını açıqlayıb. Aviaşirkət həmçinin bu qış flaqman Lufthansa brendi üçün mövcud sərnişin - kilometrlərini azaltmağı planlaşdırır.

Qeyd edək ki, Lufthansa Yaxın Şərqdəki qeyri-sabitlik və artan enerji qiymətləri səbəbindən tədbirlər görmək məcburiyyətində qalan yeganə aviaşirkət deyil. Məsələn, Stokholmda yerləşən SAS Scandinavian Airlines aprel ayında təxminən 1000 uçuşu ləğv edəcək. Fransanın Air France-KLM şirkəti isə, xüsusən də uzunməsafəli reyslərə artıq satılmış biletlər üçün əlavə haqqını 100 avroya qədər artırıb. Moldovanın FlyOne aviaşirkəti də yanacaq çatışmazlığı səbəbindən uçuşların ləğv olunduğunu bildirib.

***Rizvan HİLALOĞLU, "Azərbaycan"***

# Briv festivalında Azərbaycan kinosu: *rejissorun ilk Fransa təcrübəsi*

**Rejissor Emin Əfəndiyevin "Tənha insanın monoloqu" filmi Fransada keçirilən 23-cü Briv Beynəlxalq Ortametrajlı Filmlər Festivalında tamaşaçıların böyük rəğbətini qazanıb. Filmin nümayişindən sonra rejissor müzakirələrə qatılaraq tamaşaçıların suallarını cavablandırıb.**



Film festival iştirakçıları tərəfindən yüksək qiymətləndirilib və rejissora festivalın sosial şəbəkələri üçün müsahibə vermək təklif olunub. E.Əfəndiyev müsahibəsində filmin ərsəyə gəlməsi, süjet xətti və şəxsi motivasiyaları barədə ətraflı danışıb. O bildirib ki, filmdə şəxsi həyatından götürülmüş məqamlar yer aldığından bu layihə onun üçün xüsusi əhəmiyyət daşıyır və ən sevdiyi işlərdən biridir.

AZƏRTAC-a açıqlamasında rejissor festivaldan aldığı təəssüratları belə ifadə edib: "Digər müsabiqələrdə də iştirak etmişəm, lakin bu, Fransada ilk təqdimatımdır. Buradakı təəssüratlarım olduqca müsbətdir. Festival rəhbərliyinin, tamaşaçıların və peşəkarların reaksiyası yüksək səviyyədə idi. Bu, mənə həm peşəkar, həm də şəxsi baxımdan dəyərli təcrübə qazandırdı".

Fransız tamaşaçılarının yanaşmasının fərqli və tələbkar olduğunu vurğulayan E.Əfəndiyev qeyd edib ki, onlar filmin hər detalına diqqət yetirir, əsəri dərindən təhlil edirlər. Bu, rejissor üçün həm çətin, həm də maraqlı təcrübədir. Belə yanaşma filmi daha yaxşı təqdim etməyə və tamaşaçı ilə daha güclü emosional əlaqə qurmağa imkan verir.

Rejissor festivalın nəticələri ilə bağlı həyəcanını da gizlətməyib: "Nəticələri gözləyirik. Hər bir mükafat yeni yaradıcılıq üçün böyük motivasiya və stimul verir".

Qeyd edək ki, ümumilikdə festival Azərbaycan kinosunun beynəlxalq arenada tanıdılması və yerli rejissorların yaradıcılığının geniş auditoriyaya çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. E.Əfəndiyevin təqdim etdiyi film mövzusu və vizual həlli ilə həm peşəkarların, həm də tamaşaçıların diqqətini cəlb edərək ölkəmizi layiqincə təmsil edib.



# Hava şəraiti dəyişkən buludlu olacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə duman müşahidə ediləcək. Cənub-qərb küləyi səhər şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 9-13, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunu, nisbi rütubət isə 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin axşama doğru bəzi şimal və qərb rayonlarında arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Arabir güclənən qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-12, gündüz 20-25, dağlarda gecə 1-6, gündüz 13-18 dərəcə isti olacaq.

# İsveçdə mümkün hücum səbəbindən 20-dən çox məktəb bağlanıb

**Çərşənbə günü İsveçin mərkəzindəki Berlinge bələdiyyəsində 20-dən çox məktəb zorakılıq təhdidləri səbəbindən bağlanıb.**



"Aftonbladet" qəzetinin məlumatına görə, naməlum bir kişi sosial mediada məktəblərə atəş açmaq hədəsini paylaşıb.

Bundan sonra - "Biz proaktiv hərəkət etmək qərarına gəldik. Məqsədimiz şagirdlərimiz və işçilərimiz üçün təhlükəsiz mühit təmin etməkdir və vəziyyətlə bağlı aydınlıq gözləyərkən bəzi məktəbləri bağlı saxlayırıq", - deyə əyalət qubernatoru Yorgen Olsson bildirib.

Məktəbəqədər təhsil müəssisələri, ibtidai məktəblər, orta və özəl məktəblər, eləcə də böyüklər üçün siniflər bağlanıb.

Polis bir qrup şəxsə qarşı qanunsuz təhdidlərlə bağlı ilkin araşdırmalara başlayıb.

Bələdiyyə məktəblərin yaxın günlərdə yenidən açılıb-açılmayacağına qərar verəcək.

***R.CƏFƏROV, "Azərbaycan"***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3721
Sifariş 510

Qiyməti 60 qəpik